# Səhabələri Tanıyaq

## ƏBU HUREYRƏNIN ŞÜBHƏLI KIMLIYI

O kəslər ki, sözü (öyüd-nəsihəti) dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!

Zümər ayə 18

الَّذِينَ يَسْتَمِعُونَ الْقَوْلَ فَيَتَّبِعُونَ أَحْسَنَهُ ۚ أُولَٰئِكَ
الَّذِينَ هَدَاهُمُ اللَّهُ ۖ وَأُولَٰئِكَ هُمْ أُولُو الْأَلْبَابِ

Müəllif: Rza Əliyev

# Səhabələri Tanıyaq

## Əbu Hureyrənin şübhəli kimliyi

Müəllif: Rza Əliyev

Hazırladı: Vüsal Əli

Bakı 2014

# Giriş sözü

İslam tarixçiləri və hədis alimləri tərəfindən kifayət qədər diqqət yetirilən bir səhabə- Əbu Hurəyrə... Künyəsi ilə tanınıb məşhurlaşmış bu insan kimdir? Yəmən əsilli olduğu yazılır, bəs görəsən, adı nədir bu tarixi şəxsiyyətin? Hicrətin yeddinci ilində cərəyan etmiş Xeybər müharibəsi zamanı islama gəlmiş və əziz Allah rəsulu (s) ilə yalnız üç il birlikdə olmuş bu insan, necə olur ki, fəzilətləri dillər əzbəri olmuş bir çox üstün səhabələri və ümumiyyətlə, Peyğəmbərin (s) bütün əshabını hədis nəql etməkdə geridə qoyur? Əsli və soyu dəqiq bilinməyən, öncələri yəhudi olan, yazıb-oxumağı bacarmayan, islama üz gətirdiyi zaman bir qarın yeməyə möhtac olsa da ömrünün sonunu Peyğəmbər şəhərində rəsmi vali və bir əmir kimi keçirtmiş və hər bir düşüncəli təhqiqatçı üçün həyatı şübhəli qaranlıqlarla dolu bu səhabə, necə olur ki, hədis elmində istinad edilən ən əsas bir raviyə çevrilir?

Əlinizdə olan bu kitabça sizə elmi-tarixi məlumatları verməklə yanaşı düşündürmək və həqiqətləri olduğu kimi göstərmək üçün çoxlu suallarla da dolu olacaqdır. Sual düşüncənin və marağın ən əsas göstəricisidir. Məhz elə bu baxımdan da bütün səhabələri ədalətli hesab edən bir qrup müsəlman alimləri Peyğəmbər əshabı barədə verilməli olan suallara hüdud müəyyənləşdirmiş və bu hüdudlardan kənar suallar verməyi qəti surətdə qadağan etmişdilər. Sözügedən qadağaya riayət edən bir çox müsəlman qardaşlarımız hal-hazırda da mövcuddur. Bizim əqidəmizcə isə belə bir qadağanın nə dini bir əsası var, nə də əqli. Əksinə, müqəddəs Qurani-kərim bizləri xəbərinə istinad edəcəyimiz şəxsin kimliyini şübhəli olduğu halda onu araşdırmağa çağırır* (Hucurat surəsi 6). Sağlam ağıl da hökm edir ki, barəsində böyük şəxsiyyətlər tərəfindən şübhələr irəli sürülmüş və bəzilərinin də qəti şəkildə yalançılıqda ittiham etdiyi bir insanın həyatını araşdırmaq labüddür. Xüsusən, həmin insan ikinci əsas dini

mənbə olan hədis elmində əvəzolunmaz və bir nömrəli şəxsiyyət kimi göstərilirsə, artıq bu araşdırmanın lüzumunu sübut etməyə ehtiyac qalmır. Elə isə biz də araşdırmağa və təhqiqata kifayət qədər müsəlman aliminin hədis nəql etməkdə etimad göstərdiyi Əbu Hureyrənin barəsində ümumi məlumat verməklə başlayırıq. Sonradan isə gətirdiyimiz bütün məlumatların tarixi sənədlərini bircə-bircə əhli-sunnə qardaşlarımızın əzəmətlə yad etdiyi alimlərin kitablarından göstərəcəyik və istinad etdiyimiz dəlilləri daha dərin səviyyədə təhqiqə qoyacağıq. Uca Allah hidayət və rəhmətini bizdən əsirgəməsin.

Əbu Hureyrə haqqında ümumi məlumat:

Əsl adı hamı üçün naməlum olan Əbu Hureyrənin islamı qəbul etdikdən sonrakı isminin Abdullah ibn Saxr olduğu bildirilir. Lakin, bu adı belə ona ehtimalən nisbət verilmiş 30-a yaxın addan biridir. Künyəsinin "əbu hureyrə" olmasının səbəbi isə pişiklərə olan məhəbbət və qayğısıdır. Hələ müsəlman olmamışdan öncə atası ona həmin künyəni vermişdir. Onun əslən yəmənli olduğu və "Dus" qəbiləsinə mənsubluğu tarixi faktlardan bizə məlumdur. Hicrətin 7-ci ilinə kimi yəhudi olmuş və o vaxta qədər nələr yaşadığını yalnız özü məlumat verdiyi qədər tarixçilər qeyd ediblər. Xeybər qəzvəsi zamanında müsəlmanlara qoşulmuşdu. Aclıq və səfalət içərisində olduğuna görə əshabi-siffədən biri kimi Mədinədə həyat sürməyə başladı. Özünün də dediyinə əsasən, bir qarın yemək üçün Peyğəmbərin (s) yanında dolaşardı. Çox vaxt ac olduğu üçün səhabələrin keçdikləri yolun kənarında oturar, özünü qəşş etmiş və halsız kimi göstərərmiş ki, bir nəfərin yazığı gəlib onu evinə aparsın və çörək versin. Hətta, bunu da özü bildirib ki, Ğəzvan adlı bir səhabənin qızına yaşamını davam etdirməkdən ötrü ehtiyac duyduğu bir qarın yemək üçün nökərlik edirmiş. Lakin, çox qəribədir və hər bir tarixi təhqiqatçı üçün çox maraqlıdır ki, sonradan başına "taleh quşu" qonmuş Əbu Hureyrə o qədər varlanır və onun maddi imkanları o həddə çatır ki, bir zamanlar nökərçilik etdiyi xanımı (binti

Ğəzvanı) öz nigahına keçirdir. Artıq o vaxt Əbu Hureyrənin dərdi qarnını doyurmaq və bir tikə çörək tapmaq deyildi. O artıq bir vali və əmir idi. Bundan qabaq isə Müaviyənin ziyafət süfrəsinin dadlı yeməyi olan "məziri" xoşlamaqda ad çıxarmışdı və elə bu üzdən də ona "şeyxul-məzira" deyənlər də olub. Bəs görəsən, necə oldu ki, Mədinəyə ac, çılpaq və fəqir kimi gəlib əshabi-siffəyə qoşulmuş bir insan neçə illər sonra həmin şəhərə sanki oranın yiyəsi kimi qayıtdı? Görəsən, rəsmi valilik vəzifəsini ona lütf etmiş yüksək dairənin nümayəndələri olan üməyyə oğullarının gözündə Əbu Hureyrəni dəyərli edən nə idi?

Əbu Hureyrə hədis söyləməkdə bütün səhabələri geridə qoymuşdur. Səhabələrə məxsus olan üstünlüklərdən heç birinə sahib deyildir. O nə mühacirdən idi, nə də ənsardan. Cihad və döyüş meydanlarında da heç bir zəhməti olmayıb. Özü etiraf etdiyinə əsasən, yazıb-oxumağı da bacarmırdı. Bütün bunlara baxmayaraq, Əbu Hureyrə mühacir, ənsar, mücahid və barəsində mədhlər söylənmiş bütün səhabələrdən daha çox hədis nəql etmiş və söylədiklərini əziz Peyğəmbərimizə (s) nisbət vermişdir. Əhli-sünnə mənbələrində ondan 5 mindən çox hədis nəql olunmuşdur ki, onların 446-nı məzhəbin böyük hədis alimi Muhəmməd ibn İsmail əl-Buxari öz səhihində qeyd etmişdir. Buxarinin səhihində gələn hədisdə Əbu Hureyrənin dediyinə görə o və Abdullah ibn Əmrdən (yaxud Ömər) daha çox hədis söyləyən olmayıb. Bu iki şəxsin fərqi ondadır ki, ibn Əmr yazmağı bacarırdı, amma, Əbu Hureyrə yazmağı öyrənməmişdi. Diqqət olunası məqam budur ki, əhli-sünnənin bir çox alimləri tərəfindən ən yüksək tariflərlə mədh olunmuş Buxari, Əbu Hureyrənin də özünə bərabər tutub və hətta yazıb-oxuya bilməkdə ondan geriyə qaldığını bildirdiyi Abdullah ibn Əmrdən yalnızca 7 hədis nəql etmişdir. Necə də acınacaqlıdır və necə də təəccübləndirici! Hətta bir anlıq olsa belə insan ağlından keçməməsi mümkün deyildir ki, "Əbu Hureyrə bu qədər hədisi haradan eşitmişdi?". Dörd raşidi xəlifənin hamısının hədisləri cəm olunduqda belə onun nəql etdiklərinin yarısı qədər də hasil olmur. Besətin əvvəllərindən Hz. Peyğəmbərlə (s) birgə

olmuş və hətta oxuyub yazmağı öyrənmişlər də Əbu Hureyrə qədər hədis nəql edə bilməyib. Görəsən niyə və nəyə görə? Çox qəribədir ki, hədis kitablarında Əbu Hureyrənin mədhi haqqında gələn bir neçə hədisin yalnız bir ravisi vardır. Həmin ravidə Əbu Hureyrənin özüdür. Bir şəxsin özü barəsində dediyi təriflərə inanıb onun bütün hədislərinə etimad göstərəcəyikmi? (Diqqət edin).

Əbu Hureyrənin həddən artıq çox hədis nəql etməsinə bir çox səhabə etiraz etmişdi. Hətta, onun Mədinədə vali olduğu dönəmlərdə şəhərin qadınlarının dini və şəri suallarda müraciət yeri olan Aişə xanımla Əbu Hureyrə arasında soyuq münaqişələr olmuşdu. Aişə xanım ona dəfələrlə etiraz edərdi və bəzi hallarda Əbu Hureyrə öz sözünü geriyə belə götürməyə məcbur olmuşdu. Xəlifə Ömər də onu hədis nəqlindən nəhy etmiş və əks halda öz vətəninə (yəni Dusa) sürgün edəcəyini bildirmişdi. Əbu Hureyrə yəhudi kahin Kəbul-əhbardan da çox təsirlənirdi. Ondan eşitdiyi bəzi mətləblərlə Peyğəmbərin (s) hədislərini qarışdırıb səhv salması da məşhur olan bir həqiqətdir. Bəzən bir söz deyib Hz. Peyğəmbərə (s) nisbət verərdi. Dediyi sözün əksi ona isbat edildikdə isə səhvə yol verdiyini etiraf edərmiş. Ya həmin sözü birbaşa Peyğəmbərdən (s) eşitmədiyini, amma, başqa bir səhabədən öyrəndiyini deyərdi. Ya da elə birbaşa və həyasızcasına öz ağlından danışdığını bildirərdi.[1] Bütün bunlar səbəb olmuşdur ki, əhli-sünnə məzhəbinin də böyük hədis və rical alimləri onun haqqında əhli-tədlis olduğunu söyləyiblər. Tədlis- yəni, özü eşitmədiyi hədisi digər səhabədən öyrəndiyi halda onun adını çəkmədən nəql etmək. Təbii ki, həmin əhli-sünnə alimləri tədlisi Əbu Hureyrə üçün problemli bir şey hesab etmirdi. Çünki, onlar əvvəlcədən təəssüb eynəklərini taxmışdı və Əbu Hureyrəni "bərəkətli" üç il yaşamış səhabə kimi tanımışdılar. Lakin, biz məlumatları onların öz kitablarından əxz edərək suallarımızı verməklə yalnız düşünən və nəticəni insaflı şəkildə hasil edən insanlara müraciət edəcəyik.

[1] (Növbəti hissələrdə sözlərimizin dəlillərini qeyd edəcəyik).

## Əbu Hureyrənin əvvəli və sonu:

1) Bura kimi qeyd etdiklərimiz adı dillər əzbəri olmuş məşhur səhabənin haqqında ümumi xarakterli məlumatlar idi. İndi isə onun barəsində sənəd hesab edilən kitablardan bir neçə nümunə göstərmək istəyirik. Təbii ki, müraciətimiz və qənaət (nəticə) əldə etmə metodumuz yalnız düşünən və təəssübkeş olmayan insanlar üçün keçərlidir. Göstərdiyimiz dəlillər və nümunələr əhli-sünnə məzhəbinin böyük rical və tarixçi alimləri tərəfindən qələmə alınmışlardır. Sözsüz ki, onlar qeydə aldıqlarını Əbu Hureyrəni mədh etmək üçün və onu ana-ata tərəfindən gördükləri tərbiyələrinə söykənərək sevdikləri halda tanıtdırıblar. Lakin, tarixə və insanlara gizli qalmamış bir qrup həqiqətləri ya məcburiyyətdən, ya da fərqinə varmadan aşkar ediblər ki, biz də məhz həmin nöqtələri və nisbətən qapalı olan həqiqətləri göstərməyə çalışacağıq.

Əbu Hureyrənin islama qədərki və islamdan sonraki durumu haqqında dəyərli əhli-sünnə alimi Zəhəbi[2] belə yazır:

***"Əbu Hureyrə əd-Dusi əl-Yəməninin məşhur adı Abdullah ibn Saxrdır. Cahiliyyət vaxtı isə adı Əbduş-şəms idi. Öz dediyinə əsasən, atası ona "əbu-hureyrə" künyəsini verib. Çünki, (o deyir ki) mən qoyun otarırdım və bir gün vəhşi çöl pişiyinin balalarını tapdım. Atam onları görüb səslərini eşidəndə***

---

[2] Muhəmməd ibni Əhməd ibn Osman əz-zəhəbi 8-ci hicri əsrinin böyük əhli-sünnə alimlərindəndir. Hicrətin 673-cü ilində (miladi 1274) Şam şəhərində qohumlarının nəzərə çarpan hissəsi alim hesab edilən əslən Türkmən olan elmi bir ailədə dünyaya gəldi. Atası sərraflıqla məşğul olub bu sahədə kifayət qədər şöhrət tapdığına görə ona "Zəhəbi" (yəni zərgər) ləqəbi verilmişdi. Elə həmin ləqəb də atasından ona bir növ miras kimi qalmışdı. Özünün dediyinə əsasən atası rəvayət elminə çox aşina bir alim idi. Zəhəbi məşhur və təəssübkeş əhli-sünnə alimi ibn Teymiyyənin şagirdi olmuşdur. Zəhəbinin bir çox əsərləri dövrümüzə rahatlıqla gəlib çatmış və hal-hazırda elmi sahələrdə çox oxunulan kitablardandır. İstər təfsir, istər tarix və istərsə də ricali sahələrdə Zəhəbinin kitabları dəyərli qəbul edilən müraciət mənbələrindəndir. Hicrətin 748-ci ilində (miladi 1348) Misirdə dünyasını dəyişdi. Zəmanəsinin böyük alimləri onun cənazə namazında iştirak etdilər.

***əhvalatı ona danışdım və o mənə həmin zaman "əba-hirr" deməyə başladı. Halbuki, adım əbduş-şəms (günəş qulu) idi.***

***Əbu Hureyrə Mədinəyə Xeybərin fəthi gecələrində gəlmişdi. O Allah rəsulu (s), Əbu Bəkr, Ömər, Ubey ibn Kəb və Kəbdən (kəbul-əhbar) rəvayət əzbərləyib, ondan isə çoxları (bəzi səhabələr və tabeinlər) hədis nəql edib."***[3]

Eyni kitabın digər səhifəsində isə Zəhəbi belə yazır:

***"Deyirlər ki, o, enli kürək, qabaq dişləri aralı, qırmızı rəngə boyandığı iki hörüyü var idi. Fəqir səhabələrindən idi. Həmin o fəqir səhabələrdən ki, aclıq və yoxsulluğu dadmışdılar. Allah rəsulunun (s) rehlətindən sonra isə halı yaxşılaşdı, mal-dövləti artdı... Sonra Mədinə şəhərinin əmirliyinə seçildi və Mərvanın hakimliyi (Mədinədə) zamanı onu da əvəz edərdi."*** [4]

Zəhəbinin qələmə almış olduğu tarixi məlumatlardan bəzi xüsusi nöqtələri ayırmaq və bir az daha geniş şəkildə bəyan etmək istəyirik:

1) Zəhəbi deyir ki, Əbu Hureyrənin adı Abdullah ibn Saxr olub. Halbuki, onun adı məsələsi, şəxsiyyətinin qarmaqarışıq olduğu kimi tarixə məchul qalmış bir həqiqətdir. Ona 30-a yaxın ad nisbət verilmişdir ki, Zəhəbi onlardan yalnız ikisini (Abdullah ibn saxr və Əbduş-şəms) yada salır. "Səhihi Müslimə" yazdığı şərhlə məşhurlaşmış böyük alim Nəvəvinin də bildirdiyi kimi ***"Əbu Hureyrənin adını 30 fərqli rəyy içindən seçilmiş ən düzgünü kimi Abdullah ibn Saxr hesab etmək olar."*** [5] Adının tarixə şübhəli qalması Əbu Hureyrənin şəxsiyyətindən xəbər verən kiçik (bəlkə də böyük) dəlil olması hər bir düşüncəli insana aşkardır. Necə olur ki, nəql etdiyi hədislərlə dolu olan hədis kitablarında onun haqqında dəqiq bir

---

[3] "Təzkirətul-huffaz" 1 cild, səh 32.
[4] "Təzkirətul-huffaz" 1 cild, səh 33.
[5] "Əl-isabətu fi-təmyizis-səhabə".

ism qeyd oluna bilinmir? Əgər həqiqətən, o, bir çox səhabə və tabein tərəfindən etibarlı biri idisə, həmçinin, ona etimad edərək bir çox hədisi nəql edirdilərsə, bəs niyə onun adı haqqında dəqiq bir şey bilməmiş və insanlara da bildirməmişlər? Məgər rical kitablarında özü fəzilətli hesab edilən, eyni zamanda da isminin bu qədər şübhəli qalmış olduğu ikinci bir səhabə və ya hətta belə bir tabein vardırmı? Görəsən, tarix boyu və bu gün də bir məşhur səhabənin yalnız künyəsi ilə yad edilməsi onun adının hamıya və hətta səhabələrə də qaranlıq qaldığından xəbər vermirmi? Əhli-sünnə qardaşlarımız da böyük və əzəmətli qəbul etdikləri səhabələrin (demək olar ki) hamısını öz adlarıyla zikr etdikləri bir durumda, görəsən, nə üçün Əbu Hureyrənin isminin nə olduğu barədə heç düşünmürlər? Bundan daha genişi isə görəsən, adı ixtilaflı və tarixə qaranlıq qalmış bu şəxsin şübhəli vəziyyətini bildikləri halda nə üçün digər səhabələrin ona etimad edib-etmədiklərini heç araşdırmırlar? Qeyd etdiyimiz bu birinci nöqtəyə (Əbu Hureyrənin adı) İbni-Əbdulbirrin sözləri ilə yekun vurmaq istəyirik. O, belə deyirdi ki, ***“Əbu Hureyrənin və atasının adları üzərində nə cahiliyyət, nə də İslam dönəmində misli görünməmiş bir ixtilafa düşüldü. Belə bir ixtilafın əsaslı mövzu olduğu halda etimada səbəb olan bir gerçəyin ortaya çıxması çox uzaqdır.”***

2) Bəziləri deyirlər ki (beləları bizim yurdumuzda da var), Əbu Hureyrəyə məşhur künyəsini əziz Peyğəmbərimiz (s) vermişdir. Lakin, siz də gördünüz ki, Zəhəbi belə yazmır (DİQQƏT). Həqiqət budur ki, Allah rəsulu (s) Əbu Hureyrənin yalnız və yalnız atasının ona verdiyi künyə ilə çağırmışdır. Həmin künyənin Peyğəmbər (s) tərəfindən ona verilməsi isə bütün tarixçilərə aşkar olan bir məsələdir. Böyük əhli-sünnə alimi ibn Həcər Əsqəlani də özünün “əl-isabətu fi-təmyisiz-səhabə” kitabında Əbu Hureyrəyə həsr etdiyi hissədə məşhur künyənin ona qövmü tərəfindən verilmiş olduğunu bildirmişdir. Maraqlıdır ki, niyə görə

tarixi gerçəkliklə uyuşmayan bir iddia ortaya atılır? Adının şübhəli olduğu gizlədilir və heç bir əsasa söykənmədən künyəsinin ona Peyğəmbər (s) tərəfindən verildiyi iddia olunur? Məgər bəziləri tərəfindən atılmış bu addım mövcud həqiqətləri gizlətməyə və gerçəkliyin üzərinə pərdə salmağa yönəlməmişdirmi? Tutaq ki, sözügedən künyəni Əbu Hureyrəyə Allah rəsulu (s) vermişdi və həmçinin, mübahisə mövzusu olduğunu nəzərə almadan fərz edək ki, həmin künyənin ona verilməsi bir fəzilət kimi qəbul edilməlidir. Hətta bu halda da belə Əbu Hureyrənin Peyğəmbər (s)-dan sonra çaşmadığı və yolundan azmadığı qənaətinə gəlmirik!!! Düşünən insanlar çox yaxşı və rahatlıqla başa düşürlər ki, Bələm ibn Baura kimi mənəvi çəkisi olmuş şəxslərin yolunu azması mümkün olduğu halda Əbu Hureyrə kimi şəxsiyyəti belə qaranlıq olan və fəzilətli olub-olmadığı şübhəli qalınmış birinin yolundan sapması çox sadə və tarixdə dəfələrlə görünmüş bir hadisədir. Xüsusən, əhli-beyt ardıcıllarına məsələ günəş işığı kimi aydındır. Çünki, onların qəbul etdiklərinə əsasən (ki, həqiqət də elə budur), Əli ibn Əbutalib (ə) haqqın tərəzisidir. O həzrətə bağlı olub olmamaq hər bir insanın düz yoldan sapıb-sapmadığını göstərən ən başlıca xüsusiyyətlərdən biridir. Bu haqda çox sayda və mənəvi təvatür yaradan miqdarda hədislər nəql olunmuşdur. Sözsüz ki, həmin hədisləri böyük əhli-sünnə alimləri də qələmə almışlar və həm miqdar, həm də keyfiyyət baxımından Əbu Hureyrə üçün qeyd etdikləri fəzilətlər həmin hədislərin müqabilində dəryada bir damcı misalı kimi durmaqdadır. Həzrət Əlini (ə) haqqın tərəzisi olduğunu nəzərə alaraq, Əbu Hureyrənin da ona qarşı müxalifətçilik etdiyini bildikdən sonra, artıq, həqiqət əhli-beyt ardıcıllarına gizli qalmır. Qarşıda xüsusi bir bölmə olaraq Əbu Hureyrənin "əməvi" hakimiyyətinə olan yaxınlığı və bu üzdən də Əli (ə)-a qarşı tutumu barəsində danışacağıq.

## Əbu Hureyrənin əvvəli və sonu:

2) Zəhəbinin də qeyd etdiyi, eyni zamanda demək olar ki, bütün rical və tarixçi alimlərin bildirdiyinə əsasən Əbu Hureyrə müsəlmanlara qoşulub islamı qəbul etmək üçün Mədinəyə gəldiyi ilk dönəmlərdə çox kasıb olmuş və hətta bu kasıbçılıq gündəlik yemək təlabatını belə ödəyə bilməyəcək həddə qədər yüksəlmişdi. Bəzi mənbələrdə qeyd olunur ki, Əbu Hureyrə aclığın ona verdiyi əziyyəti aradan qaldırmaq üçün ikinci xəlifəni (Peyğəmbər (s) zamanında) evinə getməkdə olduğu yol boyunca müəyyən bir ayənin izahı ilə bağlı sorğu-suala tutardı və belə etməsinin səbəbi də xəlifənin öz evinə çatdığı zaman bəlkə onu dəvət edib yemək verməklə qarnını doyuracağı ümidi idi. Bəzən onun yolun kənarında oturaraq (və ya yarımçıq uzanaq) özünü acından qəşş etmiş kimi göstərməsi də nəql olunub. Maraqlı olan digər bir fakt barədə isə Zəhəbi belə yazır:

***“Süleyman ibn Həyyan atasından, o da Əbu Hureyrədən belə nəql edir ki, (o bu cür deyərmiş) mən yetim böyümüşəm, miskin halda hicrət etmişəm, binti-Ğəzvana (Ğəzvanın qızına) bir qarın yemək üçün nökərlik etmişəm...”***[6]

Bəli, həqiqət budur ki, Əbu Hureyrə iman gətirmiş olduğu və Peyğəmbərimizin (s) rehlətinə yalnız 3 il qaldığı heç də böyük hesab olunmayan bir müddətdə nökərçilik belə etmişdir. Onun nökərçilik etməsinin 2 fərqli təhlil və yönü vardır ki, onun birincisi hal-hazırda üzərində durduğumuz məsələdir. Yəni, Əbu Hureyrə bir qarın toxluğuna səbəb olacaq yemək üçün nökərçilik etmişdir. Nökər olmaq eyb hesab olunmur və nə insani, nə də dini cəhətdən nökərçilik etməyin heç bir maneəsi yoxdur. Lakin, kasıb olmaq, aclığı şiddətli şəkildə dadmaq və nökərçilik etmək, şübhəsiz ki, müəyyən psixoloji həqiqətlərdən xəbər verir. Həmin həqiqətlər ki, insanın mənəvi halına və ixlaslı niyyətinə təsirsiz ötüşmür. Heç bir şəkk və tərəddüd yoxdur ki, məhrumiyyət insan övladında

[6] “Təzkirətul-huffaz” 1-ci cild, səh 34.

hərislik yaradır və dinimizin də əxlaqi göstərişlərində bizə öyrədildiyi kimi əgər insan öz nəfsində baş qaldırmış hərisliyin qarşısını almağa çalışmazsa, bu hal sonda həmin şəxsin mənəvi süqutuna səbəb olacaq. Əbu Hureyrənin niyyətinə qaldıqda isə özünün də etiraf etdiyinə əsasən, o, bir qarın yemək üçün Allah rəsulunun (s) yanında olmuş və bunun sayəsində də o həzrətdən (s) hədislər eşitmişdir.

Əbu Hureyrə "əshabi-siffədən" idi. "Əshabi-siffə" Allah rəsulunun (s) tikdirdiyi məsciddə (məscidun-nəbi) bir kənarda qalıb yaşayan, Mədinədə nə məskənləri və nə də qohum-əqrabası olmayan bir qrup fəqir səhabələrə verilmiş xüsusi addır. Peyğəmbərimiz (s) məscidin şimal divarı tərəfdə xurma budaqları ilə bir kölgəlik və çardağ yaratdı. Buna Siffə deyilirdi. Evi və ailəsi olmayan yoxsul səhabələr orda qalardı. Elə həmin səbəbə görə də onlara "əshabi-siffə" və ya "əhli-siffə" adı verilmişdi. İçlərindən evlənən (təbii ki, ya Peyğəmbərin (s), ya da hansısa zəngin səhabənin köməyi ilə), səfərə çıxan, bir başqa yerə yerləşən və ya dünyasını dəyişənlər olduğu zaman sayları dəyişirdi. Onların sayı haqqında isə müxtəlif rəqəmlər qeyd olunmuşdur ki, bu da yetmişlə üç yüz dörd yüz arasında dəyişir. Onların fəqir və kimsəsiz durumu əziz Allah rəsulunun (s) həmişə nəzərində idi. Peyğəmbərimizə (s) sədəqə gətirildiyi zaman o həzrət (s) həmin şeyləri çox vaxt əshabi-siffəyə göndərərdi. Hətta, son dərəcə əliaçıq və səxavətli olan o həzrət (s) onun özünə şəxsən verilmiş hədiyyənin və hədiyyələrin də bir hissəsini götürdüyü halda yerdə qalan digər hissəsini siffə əhli olan səhabələrə göndərirdi. Deyilənlər əshabi-siffədən olanların necə çətin şəraitdə həyat yaşadıqlarından xəbər verir. Eyni halda Əbu Hureyrənin də islama gəldiyi ilk illərdə nə cür dolandığından bizi agah edir. Həqiqətən, Əbu Hureyrə aclıq və səfalətin nə olduğunu öz vücuduyla hiss etmişdi. O çox yaxşı bilirdi ki, kasıbçılıq və yoxsulluq dözülməsi nə qədər çətin olan bir vəziyyətdir **(DİQQƏT).**

İndi isə Əbu Hureyrənin fəqirlik yaşadığını bilməklə yanaşı bəyan ediməsi vacib və maraqlı olan digər bir həqiqətə toxunmaq istəyirik. Bu həqiqət də tarixi fakt və gerçəklikdir ki, Zəhəbi də ona işarə etmişdi. Yenə də onun yazdığına və tarixçilərin ittifaqına əsasən, Əbu Hureyrə Peyğəmbərdən (s) sonra varlanmağa başladı. Onun mal-mülkünün sayı artdı və get-gedə maddi rifah səviyyəsi yüksəldi. İş o yerə çatdı ki, siyasi hakimlər onu etimad edərək əmirliyə seçdilər və bir vaxtlar fəqir halda yaşadığı Mədinə şəhərinə rəhbər kimi göndərdilər. Həmin vaxt Əbu Hureyrənin mal və əmlakı o həddə çoxalmışdı ki, bir zamanlar nökərçilik etdiyi binti-Ğəzvanı belə özüylə evlənməyə çətinlik çəkmədən razı sala bilmişdi. Bu faktı da bildikdən sonra bir-birinə bağlı olan 2 sual vermək istəyirik:

I) Görəsən, necə oldu ki, Peyğəmbər (s) dönəmində aclıq və səfalət içində yaşayan bir insan o həzrətin (s) vəfatından sonra nəzərə çarpan dərəcədə varlandı?

II) Maraqlıdır ki, siyasi hakimlərin Əbu Hureyrədə olan hansı cəhətlər (xüsusilə də əməvi sülaləsinin) xoşuna gəlmiş və onların nəzərini məhz bu şəxsə cəlb etmişdi?

Birinci sualın cavabında qısa olsun deyə böyük əhli-sünnə və qrammatika (ərəb dilçiliyi) alimi olan Zəməxşərinin rəvayət etdiyi bir faktı göstərmək istəyirik. Onun bildirdiyi rəvayətin məzmunu bundan ibarətdir:

***“Ömər ibn Xəttab Əbu Hureyrəni Bəhreynə göndərdikdən bir neçə vaxt sonra onu yanına çağırır. Onu gördüyü işlərə görə, daha doğrusu, şəxsi əmlakını artırdığına görə tənqid edir. Sözünə başlarkən ona- “ey Allah və rəsulunun düşməni”- deyə müraciət edir. Əbu Hureyrənin izahlarına və həmin malların ona camaat tərəfindən hədiyyə verildiyinə dair etirafları ilə xəlifəni***

***özünə inandırmağa çalışmasına baxmayaraq vəziyyət dəyişmir. Xəlifə ondan 10 min dirhəm miqdarında pul alıb beytul-mala qatır."***[7]

İkinci xəlifə ilə məşhur səhabə arasında baş vermiş ixtilaflara qarşıdakı hissələrdə bir qədər geniş surətdə toxunacağıq, amma, burada qeyd olunan rəvayət Əbu Hureyrənin məhz mal və mülk tapması üzündən xəlifə ilə münaqişəsinə işarə edirdi. Məsələ çox aydındır və zənnimizcə, əlavə heç bir şərhə ehtiyac yoxdur. Məhz aclıq və yoxsulluq dönəmində yaranmış, eyni zamanda da kifayət qədər böyüyüb inkişaf etmiş nəfsi hərislik idi ki, Əbu Hureyrənin o qədər mala sahib çıxmasına səbəb olmuşdu. Hətta o qədər malın hədiyyə olduğuna biz, xəlifədən fərqli davranaraq inansaq belə, yenə də bir sualı düşünmədən keçmək olmur: axı bir zamanlar Allah rəsuluna (s) verilən sədəqə və hədiyyələr hesabına həyatını davam etdirən bu səhabə nəyə görə Bəhreyndə vali olduğu vaxt həmin günləri yaddan çıxardı?!

İrəli sürdüyümüz ikinci sualın cavabında isə əhli-sünnə dünyasının ən böyük hədis alimi olan Buxarinin[8] öz səhihində qeyd etdiyi hədisin məzmunundakı mühüm bir nöqtəyə dəlil olaraq söykənmək istəyirik. Xüsusi söhbət açacağımız

[7] "Əl-faiqu fi ğəribil-hədis vəl-əsər" səh 32.

[8] Əbu Abdullah Muhəmməd ibn İsmail Buxari hicrətin 194-cü ilində Buxara şəhərinə yaxın olan bir kənddə dünyaya göz açdı. Sonradan əhli-sünnə dünyasının ən əzəmətli hədis diliminə çevriləcək bu insanın uşaq vaxtlarından hafizliyə və elm öyrənməyə maraq göstərdiyini yazıblar. Əhməd ibn Hənbəl və bu kimi bir çox böyük əhli-sünnə alimlərindən dərs almaq üçün Buxarinin çoxlu şəhərlərə səfər etdiyi bildirilir. O, elmini artırmaq üçün Şam, Misir, Bəsrə, Xorasan və Bağdada səfərlər edib. Deyilənə görə son dərəcə güclü hafizəsi olduğu halda Buxari ömrü boyunca hədis əzbərləyib elm öyrənmək üçün etdiyi səfərlərin sayını yaddan çıxarmışdı. Əhli-sünnənin bir neçə böyük hədis alimi onun tələbəsi hesab edilir. Onlara misal olaraq Muslim ibn Həccacı, Tirmizini, Nəsai və İbn Quteybəni göstərmək mümkündür. Sünnə mənbələrinin əksər alimləri Buxarini şiddətli təriflərlə yad etmiş və onun səhihini islam aləminin Qurani-Kərimdən sonra ən dəyərli ikinci kitabı kimi tanıtdırmışlar. Onun son dərəcə zəkalı və iti hafizəyə malik olduğunu bildirmişlər. Buxarinin dediyinə görə o, "əl-camius-səhih" adlı əsərini (səhih-buxarini) 16 il ərzində 600000 hədisin içərisindən seçərək tərtib etmişdir. Guya o, hər bir hədisi bu kitaba yazmamışdan öncə qüsl edib iki rəkət namaz qılarmış və sonra həmin hədisi məşhur səhihinə əlavə edərmiş. Çox qəribədir ki, belə güclü hafizəyə, dərin təhqiqata və kifayət qədər ehtiyata sahib olan Buxari nəyə görə öz səhihində sənəd baxımından misilsiz təvatürə söykənən "Qədir" hədisini ("Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır") gətirməyib. Onlarla səhabənin nəql etdiyi bu hədisi saysız-hesabsız səfərlərdə olmuş Buxari, görəsən, heç eşitməmişdi və ya ehtiyatı güclü olduğundan bu hədisi yazmağa cürət etməmişdi? Bu barədə onun haqqında heç cürə hüsn-zənn etmək olmur, amma, düzünü uca Allah bilir. Əhli-sünnə dünyasının böyük hədis alimi hicrətin 256-cı ilində dünyasını dəyişdi.

Əbu Hureyrənin əməvi rəhbərləri ilə münasibəti bölməsində də bu hədisdəki incə və ürəkağrıdan nöqtəyə qayıdacağıq. Hədis belədir:

***"Əbu Hureyrə dedi: Peyğəmbər buyurmuşdu:***

***"Ən yaxşı sədəqə odur ki, özündən sonra sərvət qoyasan. Üstdə olan əl, altda olan əldən yaxşıdır. Gərək öz nəzərin altında olan adamlardan başlayasan..." (Bəziləri təəccüb edib) dedilər: Ey Əbu Hureyrə! Bunu Peyğəmbərdən eşitmisənmi?! O dedi: Yox, bu Əbu Hureyrənin kisəsindəndir."***[9]

Necə də ürkyandırıcıdır. Gözlərini təəssüb bağlamamış hər bir düşüncəli insan üçün yalnız bu hədis kifayətdir ki, Əbu Hureyrənin həqiqi şəxsiyyətini tanısın və hansı səbəbdən siyasi rəhbərlərə yaxın olduğunu başa düşsün **(DİQQƏT).** Sözünə "Peyğəmbər buyurmuşdur" deyə başlayan bu məşhur səhabə dediyi sözlərin təəccübə səbəb olduğunu və ona qarşı köklü etirazlara səbəb olacaq "bunu Peyğəmbərdən eşitmisənmi" sualını eşitdikdə hədisin düzəlmə olduğunu etiraf edir. Deyəsən, heç özü də hiss etmədən qəribə bir söz işlədir və o sözlərin (hədisin) Əbu Hureyrənin kisəsindən olduğunu dilə gətirir. Məhz bu kisə idi ki, əməvi hakimlərin marağını ona yönləndirmişdi və ey kaş hər kəs biləydi ki, bu kisə hədis aləminin başına nə oyunlar gətirdi!!! Yalançı hədislərin yaranması və inkişaf etməsində bu kisənin rolu bütün düşüncəli və tarixdən xəbərdar insanlara məlumdur.

## Əbu Hureyrənin əvvəli və sonu:

3) Əbu Hureyrədən bir çox tabeinlərin və bəzi səhabələrin hədis nəql etdiyi söylənildi. Burada təəccüb doğuracaq bir şey yoxdur. Çünki, arxasını əməvi

[9] "Səhih-Buxari" kitabun-nəfəqat; babu-vucubin-nəfaqati aləl-əhli vəl-iyal; hədis 5355

sülaləsinin hakimlərinə söykəmiş və onların hədislərini cə'l etmə (qondarma rəvayətlər yaratmaq) əməliyyatına başçılıq edən Əbu Hureyrədən çoxlu hədislərin nəql edilməsi çox təbii bir hadisədir. Qarşıda onun Muaviyə hakimiyyəti ilə olan xüsusi münasibətləri haqqında danışacağıq.

Üzərində bir qədər dayanmaq istədiyimiz nöqtə isə Əbu Hureyrənin hədis nəql etmə prosesində hansı şəxslərə istinad etdiyi məsələsidir. Belə ki, o, bəzən hörmətli və sayılıb-seçilən bəzi səhabələrlə çox hədis nəql etdiyinə görə mübahisə etməli olurdu, bəzən rəvayət nəql etdiyi şəxsi (və ya şəxsləri) görmədiyi anlaşılırdı, bəzən isə çıxılmaz vəziyyətdə qaldıqda söylədiyi rəvayəti şəxsən Peyğəmbər (s)-dan eşitməyib başqa səhabədən öyrəndiyini bildirirdi və həmin səhabə də o vaxt dünyasını dəyişmiş olduğuna görə təəccüblər bir qədər də çoxalırdı. Bunlar barədə xüsusi söhbət edəcəyik, amma, indi Əbu Hureyrənin qaranlıq şəxsiyyətini aydınladan digər bir cəhətinə toxunmaq istəyirik. Zəhəbinin də yazdığına əsasən Əbu Hureyrə bəzi şəxslərdən hədis nəql edib ki, onlardan biri də Kəbul-əhbardır. Bu şəxslə Əbu Hureyrənin ünsiyyəti bizə çox dərin həqiqətlərdən xəbər verir. O həqiqətlər ki, islam dünyasına israiliyyatın və yəhudi qaynalarındakı yanaşmaların kim tərəfindən daxil edildiyini göstərir. Sözügedən israiliyyat hədisləri müsəlman aləminin istər əqidəsinə, istər fiqhinə və istərsə də Qurani baxış tərzinə təsir etməkdə kifayət qədər sapdırıcı oldu. Kəbul-əhbarın tərcümeyi-halı barəsində danışarkən Zəhəbi belə deyir:

***“Kəbul-əhbar: o, Kəb ibn Mati əl-humeyri əl-yəmanidir. Əvvəllər yəhudi idi, Allah rəsulunun (s) vəfatından sonra islamı qəbul etdi və Yəməndən Mədinəyə Ömərin xilafəti günlərində gəldi. Peyğəmbərin (s) səhabələri ilə oturardı və onlara israiliyyat kitablarından danışardı. Qəribə şeylər əzbərləyirdi və sünnəni səhabələrdən öyrənirdi. İslami çöhrələrdən olmuşdur. Ondan Əbu Hureyrə,***

***Muaviyə və ibn Abbas hədis nəql etmişdir ki, bu hadisə də çox nadir rast gəlinən səhabənin tabein olan birindən rəvayət etməsidir..."*** [10]

Qeyd olunanları incələməyə başlamamış Zəhəbinin digər ricali kitabında Kəb haqqında yazdığı bir mətləbi də əlavə etmək istəyirik:

***"Kəb ibn Mati əl-humeyri əhli-kitabın qoca alimlərindən və elm dəryalarından idi. Əbu Bəkrin zamanında islamı qəbul etdi və möminlərin əmiri Ömərin dövləti zamanında Yəməndən gəldi (Mədinəyə). Səhabə və qeyriləri ondan (elm və.s) əxz etdi. O özü isə kitab və sünnəni səhabələrdən öyrəndi. Osmanın xilafəti zamanında vəfat edib. Tabeindən bir qrup camaat ondan mürsəl şəkildə rəvayət edib. Səhih-Buxari və qeyrisində (səhihi-Müslimdə) onun barəsində məlumat vardır."*** [11]

Uca Allahın qəribə işlərindəndir ki, haqqı daim aşkar olaraq zahirdə saxlayıb və özünü bir balaca zəhmətə salıb axtaranlar üçün həqiqət qətiyyən gizli deyil. Kəbul-əhbar haqqında məlumat vermək istədikləri zaman əhli-sünnə alimləri və həmçinin Zəhəbi də tarixin mühüm həqiqətlərini üzə çıxarıb. Sözsüz ki, bu gerçəkliklər təəssübkeş olmayan, düşünən və sual verib soğrulayan insanlar üçün aşkar olur. Təfəkkür edib sual vemək istəməyənlər isə bizim müxatəbimiz deyillər. Çünki, biz Qurani-kərimin "ulul-əlbab" deyə vəsf etdiyi şəxslərdən olmaq istəyirik və hər bir məsələdə dərindən düşünmə yolunu seçmişik. Düşüncə də sual verməklə başladığına görə biz, sorğulamaqla bəzi gerçəkliklərə nəzər etmək niyyətindəyik. Zəhəbinin Kəbul-əhbar haqqında dediklərinin bəzilərini digər əhli-sünnə alimi ibn Həcər Əsqəlani də özünün ricali kitabı olan "Təhzibut-təhzibin" 8-ci cildinin 393-cü səhifəsində gətirmişdir. Zəhəbinin yazdıqlarında isə bir neçə maraqlı məqam vardır və biz onlara ayrı-ayrı toxunmaq istəyirik:

[10] "Siyəri-ə'lamun-nubəla" 3 cild, səh 489.
[11] "Təzkirətul-huffaz" 1 cild, səh 52.

I) Kəb öncələri yəhudi olmuş və hətta onların qoca alimlərinin cərgəsinə daxil imiş, lakin, sonradan islamı qəbul edib Mədinəyə gəldi. Qəribəsi isə budur ki, onun islamı qəbul etməsi əziz islam Peyğəmbərinin (s) vəfatından sonra oldu. Görəsən niyə?! Əgər Kəbul-əhbar deyildiyi kimi alim bir insan idisə, niyə görə Allah rəsulunun sağlığında müsəlman olmamışdı? Halbuki, müsəlmanların Mədinə dönəmində islam Yəmənə çatmışdı və oradakı yəhudi kahinlər yeni dinin vücudundan xəbərdar idilər. Müqəddəs kitabımızın da buyurduğu kimi əziz Peyğəmbərimizin əlamətləri Tövratda göstərilənlərə uyğun idi və bu həqiqəti yəhudi kahinlər də bilə-bilə gizlətməyə çalışırdılar. Şübhəsiz ki, Quranın buyurduğuna əsasən onlar (yəhudi kahinlər) haqqı gizlətdiklərinə görə lənətə layiqdirlər və qiyamətdə onları ağır əzab gözləyir. İndi soruşuruq ki, bəs Kəbul-əhbar niyə alim olduğu halda və digərlərindən daha çox Tövratdan agah olduğu bir durumda islamı qəbul etməkdə gecikdi?! Etdiyi bu işlə o, lənətə layiqlər zümrəsinə daxil olmurmu? **(DİQQƏT)**. Onun müsəlmanlara qoşulduğu zaman isə özünəməxsus bir dönəm idi. Artıq islam aləmi dünyaya çox sürətlə yayılmaqda idi.Güclü bir imperiyanın* təməli qoyulmuşdu və günbəgün bu təməl möhkəmlənməkdə idi. Müsəlmanlar bir çox ərazilərə yayılıb orada yaşayanları islama dəvət edir və sahib olduqları torpaqları genişlədirdilər. Bir çox insanlar ya məcburiyyətdən, ya da güclünün yanında olsunlar deyə islamı qəbul edirdilər. Müsəlman olmayanlar "cizyə" vermək məcburiyyətində idilər. Kəbul-əhbar da məhz bu zamanda Mədinəyə gəldi. Sadalanan tarixi həqiqətləri bildikdən sonra təəssübkeş olmayan insanlar üçün Kəbul-əhbarın iman gətirməsi ilə Xalid ibn Vəlid, Əbu Sufyan və Muaviyə kimilərin islamı qəbul etməsi arasında heç bir fərq qalmır **(DİQQƏT)**. Çünki, bu cür müsəlmançılıq güc və maddi qüdrətin qarşısında təslim olmaqdan başqa bir şey deyil. Görəsən niyə, yəhudilərin qocalarından, özü də alim şəxsiyyətlərindən olan elm dəryası Kəbul-əhbar islamı Allah rəsulunun sağlığında və onun mübarək vücudundan xəbərdar olduğu zamanda yox, əksinə, o

həzrətin (s) rehlətindən sonra və müsəlmançılıq xilafətinin imperiya gücünə çevrildiyi bir vaxtda qəbul edir?! Məgər bu təslimiyyət islamın bir zamanlar iqtisadi gücünün zəifliyi və sonradan artması ilə əlaqədar deyildi, bəs nə ilə əlaqədar idi? Verilən sualların mahiyyətini özündə cəm edən – "səni Peyğəmbər (s) və Əbu Bəkrin vaxtında müsəlman olmaqdan nə saxladı ki, Ömərin zamanında təslim oldun" – sualını da Abbas Kəbul-əhbara vermişdir. Deməк ki, sözügedən suallar barəsində yalnız biz deyil, elə Kəbin öz dövründə də düşünənlər olub. Abbasın sualını isə (yəni o rəvayəti) ibn Həcər "Təhzibut-təhzibdə" qeyd edib.[12]

II) Digər bir mühim nöqtə budur ki, Kəb Mədinəyə gəldikdən sonra səhabələrlə oturardı və söhbət edərdi. Onlara israiliyyat kitablarından danışardı. Həmçinin, qəribə şeylər əzbərləyərmiş. Bunları Zəhəbi bir-bir yazmışdı və siz də oxuyub tanış oldunuz. Sual edilir ki, görəsən, Kəbin əzbərlədiyi o qəribə şeylər nə idi? Görəsən, Kəb səhabələrə israiliyyat kitablarından söhbət edərkən məqsədi nə idi? Maraqlıdır ki, səhabələrin o kitabları öyrənməkdə məqsədi nə idi? Bəli, Əbu Hureyrə də Ömərin zamanından başlayaraq Kəbul-əhbarla ünsiyyətdə oldu və qarşıdakı bölmələrdə göstərəcəyimiz dəlillərin sayəsində aşkar olacaq ki, o, Kəbdən bərk təsirlənmişdi. Bəzən Peyğəmbərdən (s) eşitdiyi hədislə, Kəbdən dinləmiş olduğu sözləri çaşdırırdı. Bəzən də sırf israiliyyat kitablarında və təhrif olunmuş Tövratda nəql edilən şeyləri islami hədis kimi insanlara danışırdı. Zəhəbinin də bildirdiyinə əsasən Kəbul-əhbardan bir neçə səhabə hədis nəql etmişdir. Bu hadisə də hədis elminin və islam tarixinin nadir və az görülən məsələlərindəndir. Necə olur ki, Allah rəsulunu (s) görməyən bir adam kitab və sünnəni səhabələrdən öyrəndiyi

[12] "Təhzibut-təhzib" 8 cild, səh 393.
*Şübhəsiz ki, imperiya dediyimiz zaman, əsla, islam peyğəmbərinin formalaşdırdığı son dərəcə məhəbbət dolu, qarşılıqlı dözümün mövcud olduğu nümunəvi yaşam(tolerantlıq) və ictimai qanunların ədalətlə tənzimləndiyi bir dövləti nəzərdə tutmamışıq. Eləcə də o həzrətin vəfatından 25 il sonra islami xilafət kürsisinə əyləşmiş İmam Əli (ə) və İmam Həsən (ə)-ın ümumilikdə 5 il 3 ay davam etmiş həqiqi Quran-Kərim hakimiyyətinin imperiya anlayışı ilə nə yaxından, nə də uzaqdan heç bir əlaqəsi yoxdur. İmperiya sözünü tərcih etməyimizdəki məqsədimiz Allah rəsulundan (s) sonra mübarək islam rəhbərliyini haqsızcasına ələ keçirərək 25 il hakimiyyətdə olmuş və sonradan da Şam torpağında heç bir hüquqi əsası olmayan dövlətin ləyaqətsiz şəxslər tərəfindən yaradılaraq səltənət şəklində təqribən 3 əsrə yaxın idarə edilmiş zalım hakimlərin hökümətidir.

halda, bəzi başqa səhabələr həmin adamdan hədis nəql edir? Ağıla sığmayan və məntiqlə uyğun olmayan bu faktı qeyd edən Zəhəbi özü də məsələyə qarşı təəccübünü gizlətməyib və bunu "çox nadir rast gəlinən" olaraq göstərmişdir.

III) Toxunulması lazım olan başqa bir nöqtə də Kəbul-əhbarın kitab və sünnəni səhabələrdən öyrəndiyi, tabeinlərin ondan hədisləri mürsəl olaraq (özü eşitmədiyi halda hədisi başqasından nəql edən) rəvayət etdikləridir. Məhz bu üzdən Buxari və Müslimdə onun barəsində az məlumat vardır. Zəhəbi bu barədə yazır:

***"Buxari və Müslimin ondan (Kəbul-əhbardan) hədis nəql etdiyini düşünən biri xəta edir. Onlar onun təriqi ilə (vasitəsi ilə) heç bir hədis gətirməyiblər. Həqiqətən, səhiheyndə onun yad edilməsi sözgəlişi olub..."***[13]

Yuxarıda qeyd olunan sözlər Kəbin mötəbər biri olmadığına dəlil deyildirmi? Əgər o, etibarlı biri idisə, nəyə görə Buxari və Müslim ona etimad edib daha çox hədis gətirməyiblər? Məgər Əbu Hureyrə ondan hədis rəvayət etmirdimi? Bəli, edirdi. Bəs nəyə görə Buxari və Müslim onun haqqında sözgəlişi söhbət açıb? Yəni, Buxari və Müslim Əbu Hureyrədən daha artıq ehtiyat sahibi olublar? **(DİQQƏT)**. Yox, sadəcə, Kəbul-əhbardan rəvayət öyrənmək və nəql etmək öz dövrünün şəraitindən irəli gəldiyinə görə Əbu Hureyrəyə sərf edirdi. Əbu Hureyrə əvvəllər yəhudi idi və Xeybər döyüşündən sonra islama gəlmişdi. Görünən budur ki, yəhudiliyin toxumları onun qəlbindən getməmişdi və Kəbi də görüncə onunla ünsiyyətə can atmışdı. Nəticə isə günəş işığı kimi aydındır. Kəbul-əhbar və Əbu Hureyrə sayəsində israiliyyat baxışları və yəhudi rəvayətləri müsəlmanlar arasında yayılmağa başladı. Sözsüz ki, bu proses o zaman hakimiyyətdə olanların nəzəri altında idi. Öncəkilər qarşı çıxmadı, sonra gələn və möhkəmlənən əməvi sülaləsi isə bundan istifadə etdi və sözügedən əməliyyatı daha böyük ərazilərə nüfuz

[13] "Siyəri-ə'lamun-nubəla" 3 cild, səh 489-490.

etdirəcək qədər genişlətdi.

Kəbul-əhbar haqqında açdığımız bu hissənin sonunda isə onun Əbu Hureyrə barəsində dediyi sözlə mətləbi bitirmək istəyirik. Kəb belə demişdir: ***"Mən onun kimi Tövratı oxumadığı halda bu qədər bilən ikinci bir şəxs görməmişəm."*** Bu sözü ibn Həcər Əsqəlani öz rical kitabında[14] Beyhəqinin "Mədxəl" kitabından nəql edərək yazmışdır. Kəbin sözü necə də qəribədir. "Oxumadığı halda Tövratı bilən" deyə vəsf etdiyi Əbu Hureyrə, həqiqətən də, oxuyub yazmağı bilmirdi. Lakin, Tövratı çox yaxşı bilirdi. Çox böyük ehtimaldır ki, islamdan öncə (Xeybərdən qabaq) Yəməndə yaşadığı zaman yəhudi kahinlərdən və sonra da Kəbul-əhbardan öyrəndikləri Əbu Hureyrənin israiliyyat haqqındakı bilgilərini nəzərə çarpacaq dərəcədə çoxaltmışdı. Öz diliylə desək, Onun üçün bu bilgilər bir **kisə** halına gəlmiş və bu kisəni kifayət qədər doldurmuşdu.

## Əbu Hureyrənin əvvəli və sonu:

4) Əbu Hureyrənin tərcümeyi-halı haqqında Zəhəbinin "Təzkirətul-huffaz" kitabından gətirdiyimiz azacıq məlumatın içində olan 4 mühüm nöqtəyə toxunduq. İndi isə beşinci və sonuncu əhəmiyyətli məqama işarə etmək istəyirik. Bu sonuncu məqam, eyni zamanda özündən sonra gələcək və ayrıca şəkildə araşdıracağımız "Əbu Hureyrə və Əməvi hakimləri" mövzusunun girişidir. Sağlam düşünən hər bir insan üçün məşhur səhabə barəsində irəli gələ biləcək bütün şübhələri kökündən silməyə qadir olan bir mövzudur Əbu Hureyrə və Müaviyə hakimiyyəti ilə onun dərin əlaqələri. Əməvi oğulları... Kimdir bunlar? Niyə biz əhli-beyt tərəfdarları bu lənətə gəlmiş sülalənin üzərində çox dayanırıq və onların həyatının yaxşı-yaxşı araşdırılmasına çox təkid edirik? Qeyd edilən mövzu haqqında, şübhəsiz ki, xüsusi

[14] "Əl-isabətu fi təmyizis səhabə" 13 cild, künyələr fəslindəki "ه" hərfinin I qismi.

bir kitab yazmaq və ya ən azı elmi disertasiya hazırlamaq olar. Tarix kitabları belə məlumatlarla doludur. Lakin, bizim hədəfimiz əməvi sultanlarının yox, Əbu Hureyrənin kimliyini təhqiq etməkdir. Buna baxmayaraq, məşhur səhabənin onlarla qarşılıqlı məhəbbət dolu ünsiyyətini nəzərə alıb əməvilərin də bir cəhətinə toxunmaq istəyirik.

Qısa şəkildə Müaviyə və ondan sonra gəlmiş bəni-üməyyə oğullarının qəlbindəki köklü bir xüsusiyyətə işarə etmək istəsək belə deyərik: əməvi hakimlərinin fikir və düşüncələri həzrəti Əli (ə) və onun övladlarının nifrəti üzərində yoğrulmuşdu.[15] Bəli, onlar əsla və heç vaxt əziz islam Peyğəmbərinin (s) nəfsi və hər iki dünyada qardaşı olan Əli ibn Əbutalibi (ə) sevmədilər. Halbuki, onun sevgisini Allah rəsulu (s) bütün möminlərə vacib etmişdi və İmam Əlinin (ə) məhəbbətini mömini münafiqdən ayıran bir əlamət kimi tanıtmışdı. Onlar isə nəinki, Əlini (ə) sevmədilər, əkisinə, onunla düşmənçiliyi öz hakimiyyətlərinin ən əsas dayaq nöqtəsi seçdilər. İmanın meyarı olaraq göstərilmiş İmamı (ə) sevməyib onunla müharibə etməyə və minlərlə müsəlmanın qanını boş yerə axıtmağa səbəb olan nifrətin illəti tarixdən xəbərdar olan hər bir kəsə gün kimi aydındır. Heç bir şübhə və tərəddüd yoxdur ki, sözügedən nifrətin təməli müsəlmanların ilk islami cihadı olan Bədr döyüşünə qayıdır. Məhz bu döyüşdə İmam Əli (ə) Müaviyənin dayısını cəhənnəmə vasil etmişdi. Məkkənin fəthi zamanı islamı qəbul etmək əməvi oğullarının güc və qüdrət müqabilində təslim olmasından başqa bir şey deyildi. Onlar nə Allaha, nə də rəsuluna (s) səmimi qəlbdən iman gətirməmişdilər və elə bu səbəbdəndir ki, əziz Peyğəmbərin (s) də Əli (ə) barəsindəki məşhur mədhləri və təriflərinə fikir vermədilər. Əməvilərin qisas həvəsi nə Siffeyn müharibəsi ilə söndü, nə də yer üzünün ən bədbəxt insanı ibn Mülcəmin (l.ə) İmam

[15] 8-ci əməvi hakimi olmuş Ömər ibn Əbdüləzizin vücudunu və 3 illik hakimiyyətini ümumilikdə 90 ilə yaxın davam etmiş 14 üməyyə oğluna nisbət bir istisna qəbul edirik. Çünki, həqiqətən də Ömər ibn Əbdüləziz özündən əvvəlki və sonrakı əməvi sultanlarından fərqli olaraq əhli-beytə qarşı nifrət bəsləməmişdi.

Əlini (ə) qətlə yetirməsilə. Onların qisas alovunun şölələri həm İmam Həsən (ə)-ın zəhərləndirilərək şəhadətə çatmasına, həm də Kərbala hadisəsinə qədər uzandı. Sadalananlar üməyyə oğullarının məsum və günahsız insanların qətlləri ilə bağlı kiçik bir misal idi. Onlar məqsədləri uğrunda o qədər müsəlmanı öldürmüşdilər ki... Bu barədə söhbət açıb oxucuları üzmək istəmirik. Maraqlananlar tarixi kitabların içində kiçik bir seyrə çıxmaqla bütün o dəhşətli həqiqətləri oxuya bilərlər. Bəni-üməyyənin cinayətləri müsəlmanların qətli ilə məhdudlaşmadı. Onlar Əli (ə)-la müxalifət edə biləcəkləri hər cür sahədə və hər bir işdə, hətta müqəddəs islam şəriətində belə öz mənfur məqsədlərini həyata keçirdilər. Ən sadə misal isə Müaviyənin insanlara pişnamazlıq etdiyi zaman Əli (ə)-ın əksinə olaraq "bismillahı" astadan deməyi (bəlkə də ümumiyyətlə heç deməməyi) idi. Bəli, onları Peyğəmbərin (s) namazı necə qıldığı heç maraqlandırmırdı və əsas məqsəd İmam (ə) ilə mübarizədə hansı növ olursa-olsun həmin vasitədən faydalanmaq idi. İstər Əli (ə) haqqında olan təriflərin gizlədilməsi, istər onun əleyhində yalançı hədislərin uydurulması, istər Əli (ə)-ın inandığı əqidə və əməl etdiyi fiqhin tamamilə əksinə dəyişdirilməsi əməvilərin gördükləri işlərin və həyata keçirdikləri siyasi fəaliyyətin detallara varmadan ümumi görünüşüdür. Bir sözlə, məhz Müaviyə və balalarının[16] İmam Əli (ə)-a müqabil tutduğu nifrət dolu mövqe səyasində mübarək dinimizin əqidə və fiqhində dəyişikliklər edildi, dinimizə israiliyyat rəvayətləri daxil oldu və daha nələr oldu nələr...

Bizim işarə etmək istədiyimiz beşinci mühüm nöqtə Zəhəbinin də qeyd etdiyi kimi Əbu Hureyrənin əməvi hakimi olmuş Mərvan ibn Həkəmi Mədinə əmiri olduğu zaman əvəz etməsi həqiqətidir və qətiyyətlə bildirmək istəyirik ki, bu

[16]Tarixi reallıq budur ki, Müaviyədən öncə də daha dəqiq desək, islam Peyğəmbərinin (s) vəfatından dərhal sonra əhli-beyti siyasi və ictimai sferadan kənarlaşdırma fəaliyyəti başlamışdı. Əhli-beytə qarşı ilk nifrət dolu mübarizə də məhz o zaman gerçəkləşmişdi. Amma, digər həqiqət isə budur ki, Müaviyə və onun xələfləri də kökü Peyğəmbərdən (s) sonra atılmış fəaliyyəti "çox uğurla davam etdirdilər". Hətta, işi İmam Əli (ə)-a minbərlərdən lənət oxutdurmaq həddinə kimi genişlətdilər.

həqiqət hər ağıllı insan üçün şübhələrin üstündən pərdələri qaldıran bir məsələdir. Hansısa bir əmiri şəhərdə olmadığı zaman əvəz etmək siyasi əməkdaşlıq demək deyilmi? Məgər bu cür əməkdaşlıq qarşılıqlı və dərin güvəncə söykənmirmi? Eyni məqsəd və marama qulluq etmədən belə bir əlaqənin mövcud olması mümkündürmü? Zənnimizcə, hər üç sualın cavabı hamıya məlumdur. Yüz halın doğsan doqquzunda (100 halın 99-da) belə bir əməkdaşlıq köklü və dərin əlaqələr əsasında gerçəkləşir. Əbu Hureyrə ilə əməvi sultanlarının əlaqəsini 100 haldan bir istisna durumu kimi qəbul etmək tarixi dəlillərlə nəinki mümkün deyil, əksinə, agah insanları güldürəcək dərəcədə təəccüblü bir vəziyyətdir.

İndi isə gəlin görək, bu Mərvan ibn Həkəm kimdir? Görəsən, Əbu Hureyrə fəzilətli bir adamla siyasi əməkdaşlıq edirdi? Yoxsa məsələ belə deyildi? Yenə də sözümüzə Zəhəbinin Mərvan ibn Həkəm barədə yazdığı məlumatla başlayaq. O, belə deyir:

***“Mərvan ibn Həkəm əl-əməvi əbu əbdul-məlik.***

***Buxari onun barəsində deyib: “O (Mərvan), Allah rəsulunu (s) görməmişdir.”***

***Mən (Zəhəbi) deyirəm: O, Busrə və Osmandan rəvayət nəqletmişdir. Onun insanıhəlak edən əməlləri olmuşdur. Allahdan ona salamatçılıq istəyirəm. O, Təlhəyə ox atmışdı və nə işlər gördü, nələr.”***[17]

Oxuduğunuz bu bir neçə cümləlik tanıtdırmada zərrə qədər belə tərif qoxusu yoxdur. Əksinə, onun barəsində “ولهأعمالموبقة(onun həlakedici əməlləri olmuşdur)” ibarəsi işlənib. Dərhal sonra isə Allaha pənah aparılaraq onun üçün salamatçılıq istənilib. Sonda isə Mərvan ibn Həkəmin haqqında“وفعل و فعل(nələr etdi və nələr)” ifadəsi ilə mətn qurtarır. Həqiqətən, belə qısa və yalnız tənbeh xarakterli sözlərin yer aldığı tanıtdırma yazıçının çox şey bildiyini, amma, nədənsə onları qələmə

[17]Mizanul-etidal 4 cild, səh 89.

almaq istəmədiyini göstərir. Bəli, Zəhəbi islam tarixini oxumuşdu və yaxşı bilirdi ki, Mərvan güc əlində olduğu zamanlarda necə fəsadlar etmişdir. Lakin, həmin fəsadları yad etmək istəmirdi. Səbəb isə gizli deyil. Əziz Allah rəsulu (s) tərəfindən Mədinə şəhərindən sürgün edilmiş Mərvan və atası Həkəm ibn Əbil-As üçüncü xəlifə Osmanın xilafəti zamanında Peyğəmbər şəhərinə qaytarıldı. Xəlifə öz qohumlarına çox dəyər verdiyi üçün bu iki nəfəri saraya dəvət edib onlara bəxşişlər verdi və Mərvanı da yüksək vəzifə ilə (xilafət sarayının rəisi) məmur etdi. Xəlifə və Mərvan əmioğlu idilər. Üstəlik birgə siyasi-ictimai işlər də həyata keçirmişdilər. Mərvana deyilə biləcək hər bir əsaslı tənqidin xəlifəyə də şamil olacağı hamının ağlına gələ bilərdi. Nəticə isə məlumdur. İnsanlar xəlifənin barəsində bədgümana qapılacaqdılar. Zəhəbi kimi məzhəbinə son dərəcə sədaqət və təəssüblə bağlı olan bir alim isə belə bir nəticəyə əsla səbəbkar olmaq istəməzdi. Odur ki, Mərvan haqqında çox söz danışa bilmir, lakin, eyni zamanda tarixdə hər kəsə məlum və məşhur olan həqiqətlərə də işarə etmək məcburiyyətində qalır. Əgər işarə etməsə, sonradan özü qınaq obyektinə çevrilə bilərdi. Zəhəbi də atalar demişkən- “nə şiş yansın, nə kabab”- metodu üzrə iş görür. Bir neçə cümlə ilə məsələni bitirmək istəyir. Amma, bizə bu da kifayətdir. Bütün düşünən insanlara bircə işarə bəsdir ki, təfəkkür mühərriki işləməyə başlasın. Düşüncələrdəki düyünləri açmaq və daha aydın fəza yaratmaq üçün Mərvan ibn Həkəmin həyatına kiçicik bir işarə edək.

Mərvan ibn Həkəm ibn Əbil-As ibn Üməyyə ibn Əbduş-şəms əl-əməvi hicrətdən 2 və ya 4 il sonra dünyaya gəldi. Bəzi tarixçilər onun fəth ilində müməyyiz (hələ təzə-təzə əqli yaxşını pisdən ayırmağa başlayan uşaq) olduğunu, bəzi tarixçilər də islam peyğəmbəri (s) dünyasını dəyişdiyi zaman onun səkkiz yaşı olduğunu yazıblar. Bütün rical alimləri (söhbət əhli-sünnə ricali kitab sahiblərindan gedir) Mərvanın Allah rəsulunun səhabəsi olmasında və ondan nəsə nəql etməsində möhkəm şübhəyə düşmüşlər. Hətta, sözlərindən anlaşılan budur ki, onun

səhabə olmadığına inanıblar. Necə ki, Buxarinin də belə düşündüyünü Zəhəbi qeyd etdi. İbn Həcər Əsqəlani  Mərvan haqqında –"onun üçün Peyğəmbəri (s) görməkdən başqa heç bir şey sabit edilməyib"- ifadəsini işlədib. Bütün şübhə və tərəddüdlərin kökündə Mərvan və atasının Mədinədən məhz Allah rəsulu tərəfindən sürgün edilməsi dayanır. Həqiqətən, Həkəm ibn Əbil-As fəth ilində bütün müşriklərin islamın qüdrəti müqabilində təslim olduğu vaxtda iman gətirdi. Çox keçmədi ki, etdiyi işlərə görə Həkəm Peyğəmbərin (s) qəzəbinə tuş gəldi və oğlu Mərvan da onunla birgə olmaqla Mədinə şəhərindən uzaqlaşdırılıb Taifə sürgün edildilər. Onlar aşkar surətdə Allah rəsulunun (s) qəzəbinə səbəb olmuşdular. Daha doğrusu bu qəzəbin səbəbkarı Həkəm olmuşdu, amma, ilahi nəbi olan Hz. Muhəmməd (s) oğul Mərvanın da atasından geri qalmayacağını bilirdi və hər bir ağıllı insan da gələcək fəsadlara ən azı ehtimal verirdi. Bu üzdən Allah rəsulu (s) onların hər ikisini lənətləmişdi. Əhli-sünnənin təşəyyü məzhəbinə qarşı son dərəcə qəzəbli və təəssübkeş alimi Fəxri Razi özünün məşhur təfsir kitabının "İsra surəsinin 60-cı ayəsinin" izahında Aişə xanımın Mərvana belə dediyini nəql edir:

***"Sən atanın sülbündə olduğun zaman Allah sənin atana lənət etdi və odur ki, sən də lənətə gəlmişlərdən birisən."***

Allah rəsulu (s) aləmlərə rəhmət olduğu halda onun nadir hallarda görünən qəzəbinə səbəb olmaq və özü də lənətə gələcək şəkildə əməllərə bulaşmaq, heç şübhəsiz ki, imansızlıq etməkdə böyük bir məharətdir. Bu məharət nifaq və imansızlığın ən uca zirvəsidir. Nəticə olaraq da mübarək Mədinə şəhərindən qovuldular. Nə birinci xəlifə, nə də ikinci xəlifə onların bu şəhərə qayıtmasına icazə vermədi və onlar da buna heç cəsarət etmədilər. Üçüncü xəlifə isə həm Peyğəmbərin (s), həm də ilk 2 xəlifənin əksinə əməl etdi və öz qohumluq məhəbbəti üzrə işlər görməyə başladı. Həmin vaxtdan Mərvan günbəgün

irəliləməyə, maddi imkanlarını çoxaltmaqla yoxsul təbəqənin yanında hörmətini artırmağa başladı. Qarşılarına çıxıb etiraz edən və haqqı deyən heç kəsə rəhm etmədilər. Mərvan və onun qulluq etdiyi şəxslərin istər Əbuzər kimi yoxsul səhabəyə, istərsə də Əmmar Yasir kimi İmam Əliyə (ə) bağlılığı ilə tanınmış fəzilət dolu bir səhabəyə və ümumiyyətlə onların qarşısına çıxan kim olursa-olsun heç kimə güzəştə getmək fikirləri yox idi. Mərvan öncə üçüncü xəlifə ilə birlikdə oldu, sonra Aişə ilə birgə Cəməl döyüşündə islam Peyğəmbərinin (s) can qardaşı Əli (ə)-a qarşı vuruşdu. Siffeyndə də Müaviyə ilə birgə İmam Əlinin (ə) müqabilində idi. Bir vaxtlar Mədinədə üçüncü xəlifənin xilafət sarayında rəis kimi işləyən Mərvan, Müaviyənin hakimiyyəti ələ keçirdiyi zamandan sonra onun valisi olaraq yenə də Mədinəyə əmir kimi qayıtdı. Allah rəsulunun (s) əziz nəvəsi və cənnət cavanlarının ağası İmam Həsən (ə)-ın mübarək vücudunun babası Peyğəmbərin (s) yanında torpağa tapşırılmasına da Aişənin göstərişi əsasında məhz Mərvan öz qoşunu ilə mane oldu. Həqiqətən Mərvan əsl əhli-beyt düşməni idi. Atası islam Peyğəmbəri (s) ilə necə müxalif idisə, o da həmin cür (bəlkə də ondan daha artıq) əhli-beytə qarşı kin-küdurət və ədavət sahibi idi. Ömrünün sonlarında on aylıq əməvi hakimiyyətinin sultanı oldu və hicrətin 65-ci ilində dünyasını dəyişdi.[18]

Əziz oxucu, Mərvan ibn Həkəm haqqında bu deyilənlərdən sonra onun Əbu Hureyrə ilə olan siyasi əməkdaşlığının düz və ya səhv olduğunu, bu dostluğun qarşılıqlı razılıq əsasında gerçəkləşən fəaliyyətə necə təsir göstərdiyini və xüsusilə də Əbu Hureyrənin Mərvana nisbət ikinci dərəcəli şəxs olduğunu (çünki, Əbu Hureyrə onu əmirlikdə əvəz edirdi) nəzərə alaraq birinin digərindən hansı dərəcədə mütəəssir ola biləcəyini düşünmək sənin öhdəndədir. Çox düşünməyə ehtiyac olmayacaq, çünki, bir çox həqiqətlərə onsuzda işarə edildi.

---

[18]Bütün bu tarixi faktlar bir çox qədim kitablarda qələmə alınmışdır. İslam tarixinə dair əsərləri səhifələməklə bunları rahat şəkildə tapıb oxumaq olar. Maraqlananlar dəyərli əhli-sünnə alimi ibn Həcər Əsqəlaninin "Əl-isabətu fi təmyisiz-səhabə" kitabının 3-cü cildinin 134-cü səhifəsinə ("م" hərfi başlığı altındakı bölməyə) və böyük təsənnü elm xadimi Nəvəvinin "Təhzibul-əsma" kitabının 2-ci cildinin 105-ci səhifəsinə müraciət edə bilərlər.

### *Əbu Hureyrə və əməvi hakimiyyəti*

Əziz oxucular, belə mühüm bir mövzuya ümumi şəkildə toxunmamışdan öncə qeyd etmək yaxşı olardı ki, Əbu Hureyrə və əməvi hakimlərinin əlaqəsi barəsində ayrıca bir elmi iş hazırlamaq mümkündür. Mümkün olmaqdan əlavə belə bir elmi işin müsbət tərəfi ondan ibarətdir ki,burada söhbət açılan mövzular hər bir düşüncəli insan üçün məşhur səhabə haqqındaki bütün şübhələri tamamilə aradan qaldırmağa qadirdir. Bir qədər siyasi təhlil yönümlü tərkibə sahib olsa da bu mövzu Əbu Hureyrənin həqiqi şəxsiyyətini aşkar etməkdə misilsizdir.

Əməvi sülasəsinin çirkin və rəzil işləri tarixdən hamımıza məlumdur. Onların islam ümmətinə etdiyi zülmləri əhli-sünnə qardaşlarımız da öz alimlərinin tarixi kitablarından oxuduqlarına görə çox yaxşı bilirlər. Tarix Muaviyənin oğlu Yezidin hakimliyi dönəmindəki Kərbəla və Hirrə faciəsi kimi insanın damarlarındaki qanını donduran dəhşətli hadisələrə şahidlik edir. Həqiqətən onlar nə Peyğəmbər ailəsinin,nə Mədinə şəhərinin və onun əhalisinin,nə də Məkkə şəhərindəki Kəbə evinin hörmətini saxlamadılar. Bu faktlara ayrı-ayrı toxunmaqla mətləbdən uzaqlaşmaq istəmirik. Onsuz da tarixi gerçəkliklər agah əhli-sünnə qardaşlarımız üçün də məlum olan məsələdir. Lakin bir məqamda onlar həqiqəti etiraf etməyi bacarmırlar. Özlərindən öncəki sələflərinə kor-koranə tabe olduqları üçün və ya həddindən artıq təəssübkeş olduqlarına görə Muaviyə ibn Əbu Sufyanı əməvi hakimlərinin içində digərlərindən fərqləndirirlər. Fərqləndirmənin səbəbini onun səhabə olması ilə izah etməyə çalışırlar ki, bu da növbəti bir təəssübkeşlik addımıdır. Bəzən az qalır desinlər ki, Muaviyə heç Əli(ə)-la düşmən də olmayıb. Sanki Siffeyn kimi 3 aya yaxın davam edib 50 mindən çox müsəlmanın ölümünə

səbəb olmuş bir müharibə Əli(ə)-ın Muaviyəni çox istədiyinə dəlalət edirmiş. Necə də dərin təəssüb və necə də haqqa göz yummaqdır bu!!! Sadalananları nəzərə alaraq Muaviyənin də digər əməvi hakimləri kimi əhli-beytə nifrət bəslədiyini sübut edən bir fakta toxunmaq istəyirik.

Əhli-sünnə dünyasının Buxarinin səhihindən sonra ikinci dərəcəli kimi qəbul etdikləri kitab olan Muslim ibn Həccacın səhihində Hz.Əlinin(ə) fəzilətlərinə həsr edilmiş babda bir hədis vardır ki, Muaviyənin imam(ə)-a qarşı bəslədiyi kini təhqiqatçı insanlara nümayiş etdirir. Hədis uzun olduğundan yalnız onun məzmununa işarə edirik. Əmr ibn Sədin öz atasından nəql etdiyi bu hədisdə bildirilir ki, Muaviyə vaxtilə Osmanın xəlifə seçilməsində şuranın üzvlərindən olmuş Səd ibn Vəqqasa bir əmr verir və sonra ondan soruşur ki, -*" səni Əbu Turaba söyməyə nə maniə oldu?"*. Diqqət edin. Muaviyə ilk öncə Sədə nəsə əmr edir və sonra öz sualını soruşur. Görəsən onun əmri nə idi? Məhz bu sualın cavabı bizim söhbətimizin mərkəzidir. Belə mühüm sualın cavabını isə vəhabi firqəsinin böyük alimi olan İbn Teymiyyənin izahı ilə versək ,zənnimizcə, heç də pis olmazdı. O, özünün "Minhacus-sunnə əl-nəbəviyyə" kitabının 5-ci cildinin 42-ci səhifəsində belə yazır:

*"Səddən gələn hədisdə Muaviyə ona Əlini söyməsini əmr etdiyində o, bu işi görmədi."*

Artıq hər şey gün kimi aydındır və bütün şübhələr aradan qalxmağa məhkumdur. Bəli tarixi faktlardan da bizə məlumdur ki, Muaviyə Əli(ə)-la yalnız döyüş meydanında deyil, əksinə həyatın bütün sahələrində düşmən idi. Minbərlərdən imamın ünvanına lənətlər yağdırmaq kimi murdar bir əməlin əsasını məhz Muaviyə qoydu və ondan sonra da bu iş illərlə davam etdi. Yalançı hədis danışanları himayə edərək onların Əli(ə)-ın əleyhində danışmaları Muaviyə

hakimiyyəti zamanında geniş şəkildə yayıldı. Şam camaatının İmam(ə)-ın namaz qılmasına belə inanmamaları Əbu Sufyan oğlunun siyasəti nəticəsində idi. Bu rəzil insan hətta ən sadə fiqhi məsələlərdə belə Əli(ə)-ın yolu unudulsun deyə əziz islam Peyğəmbərinin(s) sünnəsinə də məhəl qoymurdu. Tarix əməvi rəhbərlər tərəfindən həyata keçirilmiş bu siyasətin şahididir. Kiçik bir məlumat verməklə biz də bildirmək istədik ki, keçmişdə hər kəsə məlum olmuş əhli-beytə qarşı nifrətin birinci daşını əməvi hakimlərinin başında dayanan Muaviyə qoymuşdu.

İndi isə Muaviyə hakimiyyəti zamanı Əbu Hureyrənin göstərdiyi "xidmətlərə" işarə edək. Əziz oxuculardan xahiş edirik ki, bu hissədə gətirəcəyimiz tarixi faktları öncəki dəlillərlə uyğunlaşdırsınlar. Haqqı görmək üçün təəssübü olmayan hər bir kəsə bu uyğunlaşdırma heç də çətin olmayacaq. Amma, yurdumuzda da yaşamaqda olan vəhabi əqidəli şəxslər qarşıda gətirəcəyimiz dəlillərə qeyri-dəqiq tarix kimi dəyərləndirdikləri məlumatlar kimi baxacaqlar. Öncədən də bildirmişdik ki, bizim müxatəblərimiz yalnız və yalnız düşünən insanlardır və bizim təəssüb əhlinə demək istədiyimiz bircə kəlmə belə yoxdur. Əbu hureyrənin məşhur əməvi hakimi və əsl əhli-beyt düşməni olmuş Mərvan ibni Həkəmlə əlaqəsindən danışdıq. Həmçinin qeyd olundu ki, Əbu Hureyrənin özünə məxsus olan bir kisəsi də var idi. Bəli, məhz bu kisənin sayəsində o, heç bir səhabənin nəql edə bilmədiyi miqdarda hədis danışmışdı. Bu həqiqətləri göz önündə saxlamaqla növbəti tarixi hadisəyə toxunmaq istəyirik. Mötəzilə alimi olmuş İbn Əbil-Hədid özünün məşhur "Şərhi-Nəhcul-Bəlağə" kitabının 1-ci cildinin 358-ci səhifəsində belə yazır:

*" Muaviyə ibn Əbu Sufyan, səhabə və tabeindən bir qrupunu toplayıb onlardan Əli(ə)-ı pisləyən hədislər uydurmalarını və bunları xalqın arasında yaymasını istədi. Onlar da bu işlə məşğul olmağa başladılar. Əbu Hureyrə, Əmr ibn As və Muğeyrə ibn Şöbə Əli(ə)-ı aşağılayan hədisləri uyduran şəxslərdir."*

Hadisəni bir qədər izah etdikdən sonra 359-cu səhifədə yazısına belə davam edir: “ *Əbu Hureyrə, Muaviyə ilə birgə Kufə məscidinə gəldi. Xalqın ona çox maraq göstərdiyini gördükdə ayağa qalxdı və iki əliylə başına vurmağa başladı(bu hərəkəti ilə camaatın diqqətini özünə çəkmək istəyirdi). Sonra belə dedi: “ Ey İraq xalqı! Mənim Allah və Peyğəmbərinin adından yalan danışıb cəhənnəm oduna layiq olacağımı zənn edirsinizmi? Peyğəmbərdən eşitdiyim şeyi məndən eşidin. Peyğəmbərin belə dediyini eşitdim. “ Hər peyğəmbərin bir hərəmi vardır, mənim hərəmim də Mədinədir. Kim orada bir hadisə yaradarsa, Allahın, mələklərin və bütün insanların lənəti onun üzərinə olsun”. Allahı şahid tuturam ki, Əli Mədinədə hadisə çıxartdı*(o, bu söhbəti ilə xalqı Əli(ə)-a lənətlər göndərməyə sövq etdi).”

Əli(ə)-a qarşı belə bir töhmətin Əbu Hureyrə tərəfindən deyilə biləcəyi ehtimal olunan bir həqiqətdir. Çünki, məlum kisə hədisini və Əbu Hureyrənin Mərvan kimi Əli(ə) düşməni ilə iş birliyini bildikdən sonra bu hadisənin baş verdiyinə inanmaq, qətiyyən, təəccüblü bir şey deyil. Əbu Hureyrə zatən Muaviyə ilə bir məkanda olmağı və hadisədə keçən hall kimi bir vəziyyətlə qarşılaşmağı öncədən çox arzulayırdı. Bu, onun üçün özünü təsdiq etdirməkdən ötrü ən yaxşı fürsət idi. Belə haldan bacarıqla istifadə etməyin də öhdəsindən gəldi. Muzdurlarına qarşı lütfkar olan Muaviyə də ona kifayət qədər hədiyyələr verdi və onun bu hərəkətini təqdirəlayiq bir əməl kimi dəyərləndirdi.

Əbu Hureyrənin əməvi sülaləsinə sədaqətli olduğunu göstərən digər bir dəlil onun Busr ibn Ərtadla birgə Şamdan Yəmənə doğru gedən yolda 30 minlik qoşunla törədilmiş yüzlərlə müsəlmanın, xüsusilə də günahı həzrət Əli(ə)-ı sevmək olan insanların qətlinə şahid olub susmasıdır. Mövzuları çoxaltmaq və əsas mətləbdən uzaqlaşmaq istəmədiyimizə görə Busrun kimliyini ayrıca müzakirə etmirik. Lakin bir cümlə ilə bunu demək yaxşı olardı ki, o bir zamanlar 3-cü xəlifə Osmanın, sonradan da Muaviyənin atəşli tərəfdarlarından olmuş və Siffeyn

döyüşündə öz qəbiləsinin nüfuzlu başçısı olan Şurehbil ibn Səmti də Muaviyənin sıralarına qatmışdı. Döyüşdən sonra isə Muaviyənin əmrilə 30 minlik qoşuna komandanlıq edərək Yəmən və Hicaz torpaqlarına tərəf hərəkət etmişdi. Bu məsiyət və uca Allaha üsyan dolu yolda elə çirkin əməllərə qurşanmışdı ki, qələm onları yazmaqdan qorxur. Busr, Əli(ə)-ın Yəməndə valisi olan Peyğəmbərin(s) əmisi oğlu Ubeydullah ibn Abbasın kiçik yaşlarda olan 2 oğlunun başlarını belə kəsdirmişdi və yol boyunca keçmiş olduğu Məkkə, Mədinə, Taif, Nəcran, Təbalə və bir çox şəhərlərdə qarşısına çıxan əhli-beyti sevər minlərlə günahsız insanları qətlə yetirmişdi. Bəli, Busr belə məlun biri idi. Amma, biz onun haqqında yox, Əbu Hureyrənin  barəsində danışdığımız üçün sual veririk ki, niyə görə Busr kimi zalım və qəddar birinin qoşununda yer alıb onun etdiklərini gördüyü halda bu məşhur səhabə susdu və səsini çıxarmadı?! Busrun qoşunu Mədinədən Məkkəyə doğru hərəkətə başlayanda Əbu Hureyrə Mədinədə onların nümayəndəsi kimi qaldı. Məhz bu hadisələrdən sonra Muaviyə Busru Kufə yaxınlığındaki Həmdan qəbiləsinə, Əbu Hureyrəni isə Mədinə şəhərinə vali təyin etdi. Deyilən tarixi məlumatları İbn Əbil-Hədid, Təbəri və İbn Əsir kimi sünni əqidəli alimlər də öz kitablarında qeyd ediblər.

Məlumat əldə etmə cəhətindən çox faydalı olan bu hissəni belə bir sualla bitirmək istəyirik, onsuz da düşünməyi sevənlər qeyd olunmuş informasiyalar üzərində təfəkkür edib nəticə çıxardacaqlar. Sualımız isə budur: “ *Görəsən niyə Əbu Zərr kimi məşhur səhabə də vaxtilə əshabi-siffədən olduğu halda Əbu Hureyrə kimi irəliləyə bilmədi və onun qədər yüksək məqamlara qalxmağı bacarmadı?!”*

*“Nə çox hədis danışırsan” tənəsi*:

Məşhur səhabənin dediyi sözlərə və nəql etdiyi bəzi hədislərə görə müəyyən səhabələr tərəfindən etirazlarla qarşılaşdığını kitabımızın Əbu Hureyrəyə dair

ümumi məlumatlar hissəsində qeyd etmişdik. Kisə hədisi misalında bu etirazlardan birini özünüz də oxudunuz. Belə ki, Əbu Hureyrə *"bunu Peyğəmbərdən eşitmisənmi?"* sualının(etirazının) cavabında *"xeyr, bu Əbu Hureyrənin öz kisəsindəndir*" deyə qarşılıq verir. Sözsüz ki, dinləyicilər Əbu Hureyrənin sözünə birmənalı şəkildə inansaydılar ona bu sualı verməzdilər. Soruşan insanların agahlığı və şübhəsi pis nəticə verə bilərdi deyə bu məşhur səhabə də gerçəkliyi gizlətmir. Buna əsasən Əbu Hureyrənin cavabı da göstərir ki, ona verilən sual etiraz xarakterli olmuşdur. Bu məlum hədis ona edilmiş etirazlardan yalnız birini bizə nəql edib.

Bir-iki hədisə də toxunmaqla bəyan etmək istəyəciyik ki, həqiqətən pişiklər atası kimi tanınan səhabəyə vaxtilə çox səhabələr şəkk edərək öz etirazlarını bildirmişlər. Görəsən adını çəkəcəyimiz Aişə xanım Əbu Hureyrəyə şəkk edirdisə və o, bu əməliylə günah etmiş olmurdusa, bəs biz niyə bu səhabəni saf-çürük etdiyimiz zaman sünni qardaşlarımız tərəfindən qınanırıq? Yəni bu əməl Aişə xanım üçün caiz idi, amma bizim üçün icazəli deyil? Müstəqil düşüncə sahibləri bu əqidəni qəbul edərlərmi? Sünni qardaşlarımızın buna dair Qurani-Kərimdən bircə dənə dəlili vardırmı? Sualları uzatmadan Zəhəbinin nəql etmiş olduğu hadisəyə keçək. Zəhəbi özünün "Siyəri-əlamun-nubəla" kitabını 2-ci cildinin 604-cü səhifəsində belə yazır:

*" İshaq ibn Səid öz atasından nəql edir ki, bir gün Əbu Hureyrə Aişənin yanına gəlir və Aişə ona deyir: "Ay Əbu Hureyrə, peyğəmbərdən çox hədis nəql edirsən". O isə Aişənin cavabında deyir:"Bəli ey anacan and olsun Allaha ki, məni hədis söyləməkdən nə qadın, nə də sürmə saxlaya bilmədi, həmçinin yağ da(qadınların istifadə etdikləri krem nəzərdə tutulur) məni məşğul etmədi"(o, bu sözüylə Aişə xanıma işarə edirdi).*

Bu hadisəni digər əhli-sünnə alimi İbn Əsakir özünün tarix kitabının 19-cu cildinin 121-ci səhifəsində qeyd etmişdir. Eyni zamanda İbn Teymiyyənin məşhur tələbələrindən olmuş İbn Kəsir də bu hədisi özünün "əl-bidayə" kitabının 8-ci cildinin 106-cı səhifəsində nəql etmişdir. Lakin, daha geniş şəkildə bu hadisəni Hakim Nişapuri gətirmişdir. Hakim "Müstədrək" kitabının 3-cü cildinin 509-cu səhifəsində isnadını səhih adlandırdığı bu hədisdəki Aişə xanımın sözlərini aşağıdaki kimi nəql edir:

*"(Əbu Hureyrəyə deyərkən) O nə hədislərdir ki, Peyğəmbərin adından söylədiyin bizə çatır. Sən bizim eşitdiklərimizdən əlavə bir şey eşitmisənmi? Sən bizim görmədiklərimizdən əlavə bir şey görmüsənmi?"*

Əziz oxucular, Aişə xanımın sözlərindəki qəzəb və tənə aşkar şəkildə hiss olunur. Hətta insafsız davranıb qəzəbi qəbul etməsək belə bu sözlərdəki etimadsızlıq və inamsızlığı inkar edə bilmərik. Əgər Əbu Hureyrə əmin və inanılmış bir səhabə idisə, Aişə xanım niyə görə ona belə suallar verməyə məcbur qalmalı idi? Niyə görə Əbu Hureyrəni heç kimin və hətta Peyğəmbər ailəsinin də eşitmədiyi hədisləri danışmaqda qınamalı idi? Bütün səhabələrin ədalətinə inanmağı özlərinə mütləq əqidə seçmiş əhli-sünnə qardaşlarımız Aişə xanımın Əbu Hureyrəyə, yəni Peyğəmbərimizdən ən çox hədis nəql şəxsə(təbii ki, müvafiq məzhəbin kitablarında) inanmamasını necə izah edəcəklər? Görəsən gətirəcəkləri dəlilə bənzər sözlər düşüncəli insanlar üçün keçərli olacaqmı? İndi isə Aişə xanımla Əbu Hureyrənin sözlərinin əks olduğu bir hadisəyə toxunaq. Bu hədisdə maraqlı olan digər məqam məşhur səhabənin özünü necə və hansı üslubla müdafiə etməsidir ki, bu səbəbdən də oxuculardan hadisəni diqqətlə oxumalarını xahiş

edirik. 3-cü hicri əsrinin hörmətli əhli-sünnə alimi olmuş İbn Quteybə[19] "Təvilu-muxtəlifil-hədis" kitabının 1-ci cildinin 22-ci səhifəsində belə yazır:

*"Əbu Hureyrədən nəql olunur:(o deyir) "Hər kim cunub halında oyansa onun üçün həmin gün oruc yoxdur." Bu məsələnin düz olub-olmadığını öyrənmək üçün Mərvan, Aişə və Həfzə xanıma xəbər verib soruşur ki, bu məsələ necədir. Onlar cavab verirlər ki, "Peyğəmbər yuxudan cunub halda oyanırdı və həmin gün oruc tuturdu". Mərvan öz elçisinə deyir ki, Əbu Hureyrənin yanına get və ona bu məsələni öyrət. Elçi hadisəni Əbu Hureyrəyə dedikdən sonra o belə bildirir ki, bu məsələni mənə Fəzl ibn Abbas danışıb və bununla da Əbu Hureyrə özünə ölmüş adamı şahid tutur. Camaat elə hesab edirdi ki, Əbu Hureyrə bunu Peyğəmbərdən eşidib, halbuki, həqiqət bunun əksinə idi."*

İbn Quteybənin nəql etdiyi bu hadisədə bəzi nöqtələr vardır ki, onlara toxunmadan keçmək olmur. Gördüyünüz kimi Əbu Hureyrənin sözünün səhf olduğunu aşkar edən Aişə və Həfzə xanım idi. Yəni bu sözügedən məsələdə(sübh vaxtı yuxudan cunub oyanıb oruc tutmaq) Əbu Hureyrə, şübhəsiz ki, Peyğəmbər zövcələrindən daha elmli ola bilməzdi. Belə məsələyə daha yaxşı bələd olmağın səbəbi isə hamıya məlumdur. Bir insanın sübhə hansı halda oyanıb nə etdiyini, sözsüz ki, bir evdə qaldığı zövcəsindən daha düz bilməyi kim bacarar? Odur ki, Əbu Hureyrə mübahisəyə daxil olmur, halbuki, Zəhəbinin nəql etdiyi rəvayətdə siz də oxudunuz ki, Aişənin etiraz dolu suallarına Əbu hureyrə cavab verməkdən

[19] Abdullah ibn Muslim ibn Quteybə (İbn Quteybə), hicri 3-cü əsrin önəmli elmi şəxsiyyətlərindən biri olmuşdur (h.q 213-276, miladi 828-889). O, müxtəlif mövzularda qələmə aldığı əsərlərindəki əhatəli şəkildə bəyan etmə və araşdırma səviyyəsi ilə öz elmi ağırlığını hiss etdirən şöhrətli bir alimdir. İbn Quteybə, Quran və hədislə yanaşı ədəbiyyat, şer və tarix elmləri ilə də dərindən maraqlanmış və apardığı təhqiqlərin nəticələrini öz əsərlərində qeyd etmişdir. Əsərləri incələndiyi zaman onun dil, nəhv, fiqh, fəlsəfə və məntiq əlmləri ilə də məşğul olduğu aşkar edilir. İbn Quteybənin etiqadi görüşlərinin əhli-sünnət məktəbinin formalaşmasında əhəmiyyətli dərəcədə rolu olmuşdur. Xətib Bağdadi öz tarix kitabında(səh. 168) və İbn Teymiyyə də "Suratul-ixlas" kitabında(səh. 86) İbn Quteybəni 3-cü əsrin böyük əhli-sünnət xətibi kimi tanıtdırıblar. Hətta İbn Teymiyyə onun haqqında "İbn Quteybə Əhməd ibn Hənbəl və İshaq ibn Rəhaveyh(əhli-sünnət məktəbinin rəhbərlərindən olub) yoluyla gedirdi" deyərək İbn Quteybəni tərif etmişdir. Onun "Təvilu muşkilil Quran", "Təvilu muxtəlifil hədis" və bu kimi kitabları təhlil olunduğu zaman etiqadi görüşlərində İbn Quteybənin əhli-sünnət məzhəbinin güclü müdafiəçisi olduğu rahatlıqla müşahidə edilir.

qalmamışdı. Lakin, burada və bu məsələdə mübahisə etməyin heç bir əsası ola bilməzdi. Əbu Hureyrə də söhbəti uzatmır və məsələni ört-basdır etmək istəyir. Ancaq o, bu işi görmək üçün hansı yolu seçir. Dəhşət məhz işin burasındadır ki, o, bu hədisi Fəzl ibn Abbas adlı həmin zaman dünyada olmayan şəxsdən eşitdiyini söyləyir. Artıq bir söz söyləməyə ehtiyac yoxdur, onsuz da təfəkkür əhli olan insanlara hər şey gün kimi aydındır. Məhz Əbu Hureyrənin belə davranış və xüsusiyyətləri idi ki, digərlərində və həmçinin Aişə xanımda da ona qarşı şübhələr oyatmışdı. Daha doğrusu şübhə yox, inamsızlıq və qəzəb... Qəribə olan digər cəhət isə budur ki, Əbu Hureyrənin səhfini ortaya çıxaran onun öz siyasi əməkdaşı olan Mərvan ibn Həkəm idi. Məsələyə tərəddüd edib Peyğəmbər(s) zövcələrinin yanına elçi göndərərək sual verən və həqiqəti bilmək istəyən şəxs başqası deyil, məhz Mərvan idi. Öncəki hissələrdə Mərvanla Əbu Hureyrənin isti münasibətindən söz açmışdıq. Deməli, Əbu Hureyrəyə nəinki digərləri hətta öz dostu belə inanmırdı. Başqa nə cür olmalıydı ki? Zatən Əbu Hureyrəyə muzd verərək yalan hədislər danışmasına səbəb olan elə həmin əməvi hakimləri və həmin Mərvanın əməkdaşları idi.

Bu bəhsin sonunda qeyd etmək istərdik ki, Əbu Hureyrəyə və onun sözlərinin düz olmasına inanan səhabələrin adlarını gətirməyi istəsək heç də çox insanın ismi zikr olunmayacaq. Çünki, ondan əsas etibarı ilə bir qrup tabeinlər və bəzi səhabələr hədis nəql etmişlər ki, onların kimliyini də tək-tək araşdırası olsaq əməvi sülaləsinə yaxın biriləri olduqları bilinəcəkdir. Təbii ki, bəzi istisnaların olması da mümkündür, lakin çoxluq hakim dairələrə yaxın şəxslər idi. Məlum həqiqət olan Əbu Hureyrə və əməvilərin yaxın münasibətlərini bilən və məşhur səhabənin çox şeyi hədis şəklinə salıb danışdığını başa düşən Qureyşdən bir adam təzə paltarını əyninə geyərək Əbu Hureyrənin yanına gəlmiş və ona belə demişdi: *“Ey Əbu Hureyrə,sən Peyğəmbərdən çox hədis rəvayət edirsən. De görüm, onun*

*mənim bu paltarım haqqında nəsə dediyini eşitməmisən?”.* Gülməli sualdır. Çünki sual verən şəxsin müxatəbi özünü bu hala salmışdı! Bəli, Əbu Hureyrə gülüş obyekti idi. Bunu biz də görə bilərik və bunu anlamaq üçün o zamanda yaşamağa ehtiyac yoxdur. Əgər məşhur səhabənin nəql etdiyi hədislərin bəzilərinə baxsaq, biz də o zamanki insanlar kimi gülərik. Qarşıda Əbu Hüreyrənin gülməli hədislərindən birinə toxunacağıq.

### *Xəlifə Ömərin Əbu Hureyrəyə münasibəti*:

Məşhur səhabənin qalmaqallı həyatının digər bir hadisəsi və ya hadisələri onunla ikinci xəlifə arasında baş vermiş problemlərdir. Onların arası heç yaxşı olmamışdı və demək olar ki, xəlifənin dünyada olduğu dönəmlər Əbu Hureyrə üçün arzuolunmaz günlər idi. Məlum münasibətdən xəbər verən bir hadisə öncəki hissələrdə toxunmuşduq. Zəməxşərinin “Əl-faiq” kitabında gətirdiyi hədisdə deyilirdi ki, xəlifə Bəhreynə vali kimi göndərdiyi pişiklər atasını sonradan geri çağırmış, onu çoxlu tənqid etmiş və orada toplamış olduğu əmlakı müsadirə edərək beytul-mala qatmışdı. Sözsüz ki, onu vəzifəsindən də azad etmişdi. Ən təəccüblüsü isə bu idi ki, xəlifə Əbu Hureyrəyə “ey Allah və rəsulunun düşməni” deyərək müraciət etmişdi. Bu hadisə üzərində təhlilə başlamamış digər bir rəvayətə də işarə etmək istəyirik. Belə ki hər iki hadisəni göz önündə saxlayaraq ümumi analiz etmə, zənnimizcə, daha yaxşı olardı. Zəhəbi özünün “Siyəri-əlamun-nubəla” kitabının 2-ci cildinin 600 və 601-ci səhifələrində belə yazır:

*“ Saib ibn Yezid deyir: Mən eşitdim ki, Ömər Əbu Hureyrəyə belə dedi(əmr edərcəsinə): “Sözsüz ki, sən hədis nəql etməyi tərk edəcəksən, əks təqdirdə səni Dusa sürgün edərəm”. Həmçinin xəlifə Kəbul-Əhbara da eyni sözü demişdi:*

*“Şübhəsiz ki, sən də hədis nəqlini tərk edəcəksən, yoxsa səni meymunlar torpağına(İsrailə) sürgün edərəm”.*[20]

Əziz oxucular, indi isə işarə etmiş olduğumuz bu iki hadisəni bir qədər təhlil edək. Heç bir şübhə yoxdur ki, təfəkkür etmək yolunu seçənlər belə rəvayətləri eşitdikləri zaman sual vermədən keçməzlər. Daha doğrusu, çoxlu suallarla həqiqətləri kəşf etmək istəyərlər. Biz də marağımıza səbəb olan məsələlər barədə suallar vermək istəyirik. Görəsən, toxunmuş olduğumuz bu iki rəvayəti əhli-sünnə qardaşlarımız necə izah edirlər? Məgər bu hadisələr xəlifə ilə Əbu Hureyrənin arasındakı ziddiyətlərə dəlil deyildirmi? Baş vermiş münaqişələrdə hansı tərəf haqq idi?

Suallarımızı pərakəndə halda vermək istəmədiyimiz üçün onları bir qədər nizamlı və işarələnmiş şəkildə təqdim etmək istəyirik:

1)Məgər xəlifə haqsız yerə Əbu Hureyrəni tənqid atəşinə tuturdu?

2)Əhli-sünnə məzhəbinə görə fəzilətli qəbul edilən Ömər kimi bir xəlifə Əbu Hureyrəni valilik dərəcəsindən geri aldığı zaman düzgün iş görmürdümü? Əgər düzgün idisə Əbu Hureyrəni ədalətli hesab etmək olarmı? Yox əgər Ömərin qərarı səhf idisə, bu halda onu xəlifə olaraq necə biri kimi dəyərləndirək? Yəni xəlifə, Əbu Hureyrə barəsində layiqli və düzgün hökm verməyən bir qazi idi?!

3)Məgər hədis nəqlini tərk etməyi həm Əbu Hureyrəyə, həm də Kəbul-Əhbara qadağan edən xəlifə Ömərin bu addımı onların bir-biri ilə yaxın və eyni işin sahibi olduqlarına dəlil deyildirmi? Düzdür, Ömər hədis nəql etməyi hamıya qadağan etmişdi, amma niyə görə məhz bu iki nəfəri sürgün etmək hədəsi ilə təhdid etmişdi?

[20] Bu hədisi 3-cü əsrin əhli-sünnə alimi Əbu Zurə Dəməşqi öz tarixində səhih hesab etdiyi sənədlə gətirmişdir. Eyni zamanda İbn Kəsir də “Əl-bidayə” kitabının 8-ci cildinin 106-cı səhifəsində bu hadisəni qeyd edib. İbn Əsakir də İbn Kəsirin sənədiylə həmin hədisi özünün tarix kitabında(19 cild, səh 117, hədis 2) nəql etmişdir.

4)Xəlifənin Əbu Hureyrəyə "Allah və rəsulunun düşməni" kimi baxması və ona belə bir müraciətlə səslənməsi yalnızca sadə bir qəzəb kimi qiymətləndirilməlidir? Yəni, xəlifə bu qədər sözünə diqqət etməyən biri idi ki, Allah düşməni kimi qorxulu və alçaldıcı bir töhməti səbəbsiz və ya haqsız yerə Əbu Hureyrəyə şamil etmişdi?

5)Görəsən niyə görə Əbu Hureyrə xəlifənin hamıya məlum olan hədis danışmağa qoyduğu qadağaya əməl etmirdi? Yəni Əbu Hureyrə xəlifənin sözünü saymırdı?

6)İkinci xəlifənin Əbu Hureyrəyə olan etimadsızlığını və Ömərin onu vəzifəsindən azad etmiş olduğunu bildikləri halda əməvi hakimləri, xüsusən də Muaviyə bu insana nə üçün güvəndi və niyə görə ona etibar etdi? Məgər Muaviyə və Mərvan kimilər xəlifə Ömərin yoluna heç hörmət etmirdilər?

7)Xəlifənin Əbu Hureyrədən müsadirə edərək beytul-mala qatdığı əmlak, görəsən necə dəyərləndirilməlidir? Oğurluq mal kimi, yoxsa Əbu Hureyrənin əlindən haqsız yerə alınmış əmlakı kimi? Bu halda iki tərəfdən birinin günahsız olmaması mümkündürmü?

8)Əbu Hureyrənin gətirmiş olduğu dəlillərə xəlifənin inanmamasından nə başa düşmək olar? İnanmamaq deyil, hətta onu cəzalandırmaq necə anlaşılmalıdır? Şəxsiyyəti problemlərlə dolu olan bu səhabəyə ikinci xəlifə belə inanmırdısa, biz niyə görə ona inanmalıyıq?!!!

Bütün bu suallar üzərində bir az düşünülərsə, sözsüz ki, tərəddüddə olanlar üçün şübhələr aradan qalxacaq, yəqində olanların isə arxayınlığı artacaqdır. Çox təəcüblüdür. Hətta ikinci xəlifə kimi son dərəcə üstün biri kimi qəbul etdikləri insanla belə münasibəti normal olmamış Əbu Hureyrəyə, əhli-sünnə qardaşlarımız necə etimad edirlər? Həqiqətən düşüncə əhlinə bunu izah etmək heç cür mümkün deyil.

### *Əbu Hureyrə gülməli insan idi*

Əziz oxucular, hədis tarixində nəql etmiş olduğu rəvayətlərin sayına görə bənzərsiz biri olan məşhur səhabənin barəsində yazdığımız bu kiçik kitabın yekun hissəsindən öncə söhbətimizin mövzusunu təşkil etmiş Əbu Hureyrə şəxsiyyətinin maraqlı cəhətlərindən daha birinə, bəlkə də ən maraqlısına toxunmaq istəyirik. Əməvi hakimlərinin yaratdığı süni qəhrəmanlıq obrazı olmuş Əbu Hureyrə bəzən elə şeylər danışırdı ki, ağıllı insanın o sözlərə inanması heç cür mümkün olmurdu. Danışdığı mənasız söhbətlərə görə ona öz zamanında da tənə vuranlar olmuşdu və biz bunlardan birinə işarə etdik. İndi isə onun uydurduğu hədislərdən birinə toxunaq. Əhli-sünnə aləmindəki mühəddislərin zirvəsində dayanan Buxari öz səhihinin 7031-ci hədisində Əbu Hureyrədən nəql edir ki, (bu sözlərdən uca Allaha pənah aparırıq) həzrəti Süleyman(ə) bir gecədə 60-dan çox qadınla cima edibmiş. Müslim də bu hədisi öz səhihində gətirmiş və qadınların sayını 60 dənə olduğunu göstərmişdir. Biz ən az miqdarı götürək. Zatən təəssübkeş olmayan hər bir insana altmış deyil, hətta bundan üç dəfə az olan iyirmi rəqəmi belə dəhşətli görünür. Düzdür ki, Əbu Hureyrə bu fantastikanı danışdığı zaman məqsədi “inşallah” kəlməsini insanlara təbliğ etmək idi, amma, ehtimal olunan saf niyyət nəyi dəyişir ki? Yəni, pişiklər atasının niyyəti təmiz idi deyə danışdığı yalana göz yumaq və Süleyman(ə) kimi pak insanın haqqını zay edəkmi?! Görəsən, Əbu Hureyrə özü nəql etdiyi bu rəvayətə inanırdımı? Axı necə ola bilər ki, bir kişi bir gecənin içində altmış qadınla cinsi əlaqəyə girməyi bacarsın? Buna nə fiziki qüvvə, nə də zaman darlığı imkan verə bilməz. Ümumiyyətlə, məsələni təhlilə qoymağa ehtiyac yoxdur. Söhbəti eşitdikləri zaman insanların ilk göstərdiyi reaksiya ağıllı bir fərdə kifayət edir. Üstəlik sözü gedən rəvayətdə həzrəti Süleymanın bilərəkdən və ilahi mələk ona xəbərdarlıq etməsinə baxmayaraq “inşallah” kəlməsini deməməsi də qeyd olunmuşdur ki, bu da növbəti bir iftiradır. Uca Allahın Öz kitabında “gözəl

bəndə" olaraq yad etdiyi bir insanın bu qədər qəflət edə biləcəyi yalnız israiliyyat kitablarında gələn rəvayətlərdə tapıla bilərdi. Bəli, Əbu Hureyrə də o kitablardan xəbərdar idi və Kəbul-əhbarla da gözəl əlaqəyə sahib idi. Nəticə etibarı ilə belə söhbətin başqası tərəfindən deyil, məhz Əbu Hureyrə tərəfindən danışılması təəcüblü bir şey ola bilməzdi. Həm təhrif olunmuş tövratdan xəbərdarlığı, həm də özünə məxsus kisəsi olduğunu nəzərə aldığımız zaman əlavə izaha ehtiyac qalmır. Həqiqət həmişə zahirdə olmuşdur. Bircə haqqı görmək istəyən qəlb gözü bağlanmamış olsun ki, bu hal sahibinin kor və kar olmasına səbəbdir.

Əbu Hureyrənin gülməli rəvayətləri Süleyman peyğəmbərin yalançı əhvalatı ilə bitmir. Əksinə o qədər uydurma hadisələr Əbu Hureyrə tərəfindən nəql olunmuşdur ki, təəssübkeş olmayan insanda suallar doğurur. Tək-tək o rəvayətlərə toxunmaq mövzunun uzanmasına səbəb olacaq deyə ümumi şəkildə onlara işarə edirik. Bəzi yerlərdə Əbu Hureyrə həzrəti Musa haqqında danışıb deyir ki, guya Musa(ə) cənab Əzraili tanımamış və ona elə bir zərbə vurmuşdur ki nəticədə ilahi mələyin bir gözü kor olmuşdu. Başqa yerdə isə Əbu Hureyrə deyir ki, Musa(ə) bir su kənarına gəlib yuyunmaq istədiyi zaman qövmü onu izləyir və o paltarlarını bir daşın üzərinə qoyur. Daş hərəkətə gəlir və qaçır. Musa(ə) daşı təqib edir və ona çatdığı vaxt qəzəblə bir neçə dəfə onu vurur. Bütün bunlar Musanın(ə) cinsi cəhətdən sağlam biri olduğu qövmünə sabit olsun deyə baş verirmiş. Sanki bir peyğəmbərin cinsi çatışmamazlığı onun nübuvvətinin batil olmasına səbəb olacaq və buna görə də insanları inandırmaq üçün bu yekəlikdə nağıl danışmaq lazım idi. Əbu Hureyrə də atalarımız demişkən, qaşı düzəltmək istədiyi zaman vurub gözü çıxardır. Ay nə bilim ilahi nəbi olan biri çılpaq soyunur və camaat ona baxdığı halda Musanın(ə) xəbəri olmur. Sonradan da daş qaçır və peyğəmbər də düşür onun dalınca. Bütün bunlar az imiş kimi şüursuz bir əşyaya qəzəblənir və onu bir neçə dəfə əsəbi halda vurur. Sözsüz ki, mənasız və əsası olmayan bir mətləbi sübut

etmək üçün uydurulan bu böyüklükdə yalanlardan Allaha pənah aparırıq. Bəzən Əbu Hureyrə hakim dairənin nümayəndələrinə tam sərf edən bir rəvayət uydurur və deyirdi ki, Allah rəsulu həzrəti Muhəmməd də(s) dua etdiyi zaman özünün səhf edə biləcəyini, bilmədən günahsız kimisi vurub döyməsinin və ya təhqir etməsinin mümkünlüyünü etiraf edibmiş. Bu sözləri demək və eşitmək, sadəcə dəhşətdir. Sanki "qələm surəsi 4-cü ayəsi(*Həqiqətən, sən böyük əxlaq sahibisən*)" peyğəmbərin(s) barəsində nazil olmamışdır. Əlbəttə ulul-əzm və şəriət sahibi olan Musa(ə) haqqında o cür sözlər uyduran şəxs, həzrəti Muhəmməd(s) barədə də bənzər sözlər danışa bilərdi. Bizim məqsədimiz isə nə o rəvayətləri toplamaq və nə də onları təhlil etmək deyildi, biz yalnız və yalnız düşünən insanlara həqiqətləri göstərmək üçün kiçicik işarə etmək istəyirdik. Çalışdıq ki, bu kiçik işarəni sizə kamil şəkildə çatdıraq. İndi isə siz də düşünün və nəticə alın.

## Nəticə:

Tarixi şəxsiyyətlərin bioqrafiyası və fərdi keyfiyyətləri haqqında danışarkən dolğun və ətraflı məlumat vermək üçün həmin insanın həyatına dair bütün bilgiləri toplamaq lazım olur. İşin çətin tərəfi də budur ki, bir insanın barəsində bütün məlumatları cəm etmək kifayət qədər zaman və zəhmət tələb edir. Əgər yazıçı və ya tərtibatçı bu çətin işin öhdəsindən gəlməyi bacararsa, nəticə də gözəl və kamil bir əsər ərsəyə gəlmiş olur. Lakin belə kamil bir əsər hər oxucu üçün cəldedici olmur və çox vaxt müşahidə olunmuşdur ki, cəmiyyətin əksər hissəsi bu cür kitablara az maraq göstərir. Ətraflı bilgiləri əhatə etmiş əsərlərin müştərisi yalnız həmin sahənin elmi işçiləri və və yaxud müvafiq mövzunu araşdıran xüsusu insanlar olur. Biz də öz növbəmizdə bu iki həqiqəti(vaxtın az olması və ictimanın maraq dairəsi) nəzərə alaraq çalışdıq ki, bu kiçik kitabda oxucuları lüzumu az olan məlumatlarla yormayaq və Əbu Hureyrə barəsində zəruri hesab etdiyimiz ümumi bilgiləri onlarla bölüşək. Kitabda keçmiş olan ümumi xarakterli mətləblərə bu

nəticə bölümündə bir neçə cümlə ilə işarə etmək istəsək söz uzanmış olacaq və biz kitab boyu seçmiş olduğumuz üslubun əksinə hərəkət edəcəyik. Ona görə də toxunmuş olduğumuz bütün mövzuları özündə əks etdirmək üçün qarşıdaki 10 sualla bu kiçik kitabımızı tamamlamaq istəyirik:

1)Əbu Hureyrə hədis nəql etməkdə hamıdan önə keçdiyi və bunun sayəsində məşhurlaşdığı halda, görəsən niyə görə bu insanın adı və atasının ismi haqqında bizə dəqiq bir söz gəlib çatmayıb?!

2)Əziz Allah rəsulu(s) ilə yalnız 3 il birgə olmuş Əbu Hureyrə necə olur ki, besətin ilk günlərindən peyğəmbərin(s) yanında ömür sürmüş və peyğəmbərin(s) hər çətinliyinə şərik olmuş Əli(ə) və Əmmar Yasir kimi insanlardan daha çox hədis nəql edir?! Bu azmış kimi Əbu Hureyrə hətta ibn Abbas, Abdullah ibn Məsud və Ubey ibn Kəb kimi Quran hafizləri və təfsirçilərini belə geridə qoymağı bacarır. Görəsən bu qədər uğurların bir hiylə olmadan qazanila biləcəyini hansı ağıl sahibi qəbul edər?!

3)Xeybərin fəthində yəhudilərin məğlub olduğu zaman müsəlmanlara qoşulan və yalnız bir qarın toxluğu üçün peyğəmbərin(s) yanında olmuş Əbu Hureyrənin imanı nə qədər səmimi idi?!

4)Öncələri çox kasıb olmuş və fəqir səhabələrdən formalaşmış əshabi-siffədən biri kimi yaşamış Əbu Hureyrənin sonradan varlanıb son dərəcə zəngin biri kimi Mədinə şəhərinə əmir olaraq qayıtması maraqlı hadisə deyilmi? Görəsən bu bəxtəvərliyin səbəbi və ya səbəbləri nə olmuşdu?!

5)Əgər Əbu Hureyrə özünə məxsus bir kisəsinin olduğunu etiraf edirdisə biz niyə onun bütün sözlərinə inanmalıyıq?! Daha doğrusu öz sözünü Allah rəsulunun(s) sözü kimi təqdim edən və etirazla qarşılandığı zaman səhfini etiraf edən bir insanın digər sözlərinə biz niyə şübhə etməməliyik ki?!

6)Mərvan ibn Həkəm kimi hələ uşaq ikən peyğəmbərin(s) lənətinə gəlmiş, həyatı peyğəmbər(s) əhli-beytinə qarşı düşmənçiliklə keçmiş və əhli-sünnə qardaşlarımızın yanında hörmətli səhabə olan Təlhəyə ox atmış bir insanla Əbu Hureyrənin dostluğu və siyasi əməkdaşlığı onun şəxsiyyətini sual altına aparmırmı?

7)Yəhudi alimlərindən olmuş və çox həqiqətlərdən agah olduğu halda islamı peyğəmbərin(s) rehlətindən sonra, yəni müsəlmanların ictimai və siyasi qüdrəti hər yana yayıldığı zaman qəbul edən Kəbul-əhbarla Əbu Hureyrənin ünsiyyəti və qəribə olsa da ondan hədis nəql etməsi şübhə və tərəddüdlər yaradan bir hal deyildirmi?

8)Aişə xanımın Əbu Hureyrəyə dəfələrlə etiraz etməsi və onun sözünün əksini söyləməsi bizlərə pişiklər atasından şübhələnməyə əsas vermirmi? Məgər Aişə xanımın ona inanmaması balaca dəlildirmi?!

9)İkinci xəlifə Ömərin qəzəbinə gəlmiş Əbu Hureyrəni etimadlı ravi kimi qəbul etməmək qəbih bir işdirmi? Əgər qəbih bir işdirsə, bu halda xəlifə Ömər ona “ey Allah və rəsulunun düşməni” deməklə nə böyüklükdə günah işlətmişdi.

10)Danışdığı rəvayətlər həm sağlam ağıla, həm də Qurani-kərimin ayələrinə zidd olduğu halda və bir çox insanların gülüşünə səbəb olduğu bir durumda belə bir səhabənin kimliyindən şübhələnmək düzgün deyilmi?! Üstəlik nəzərə alsaq ki, bu insan hakim təbəqəyə çox yaxın və özünə məxsus kisəyə sahib bir səhabə idi.

*“ Müjdə ver o bəndələrimə ki, sözlərə qulaq asıb onların ən yaxşısına tabe olurlar. Onlar Allahın hidayət etdiyi şəxslərdir və əsl ağıl sahibləri də onlardır ( zumər surəsi 17 və 18-ci ayə).”*

Müəllif : Rza Əliyev